Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.

Heydər Əliyev.



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 13-14-15 (9245-9247) | 25 sentyabr 2017-ci il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 50 qəpik

## Rayonumuzda Bilik Günü qeyd olunmuşdur



**Respublika Prezidentinin 21 avqust 2004-cü il tarixli 114 saylı fərmanı ilə 15 sentyabr Azərbaycanın bütün təhsil müəssisələrində Bilik Günü kimi qeyd olunur.**

Respublikanın hər yerində olduğu kimi Qazax məktəblərində də 15 sentyabr Bilik Günü yüksək səviyyədə qeyd olunmuşdur. Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Milli Məclisin deputatları Kamran Nəbizadə, Ülviyyə Ağayeva, sərbəst güləş üzrə





Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov, RİHB aparatının məsul işçiləri və KİV nümayəndələri məktəbliləri təbrik etmək üçün şəhər Mehdi Hüseyn adına məktəb-liseyə gəlmişlər.

Şagirdlər qonaqlara gül dəstələri təqdim etmiş, alqışlarla qarşılamışlar. Dövlət Himni səsləndikdən sonra Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək 15 sentyabr Bilik Günü münasibətilə müəllim və şagirdləri, valideynləri səmimi qəlbdən təbrik etmiş, Respublika Prezidenti İlham Əliyev tərəfindən ölkəmizdə təhsilə yaradılmış yüksək şəraitdən danışmışdır. Qeyd etmişdir ki, Prezident İlham Əliyevin göstərişinə əsasən respublikamızın bütün bölgələrində yeni məktəb binaları tikilir, müəllim və şagirdlərin təlim-tədris şəraiti daha da yaxşılaşdırılır. Bu gün ali məktəblərə qəbul zamanı istər şəhər, istərsə də kənd məktəblərindən olan məzunların yüksək bilik nümayiş etdirməsi bu diqqət və qayğının əyani şəkildə göstəricisidir.

Milli Məclisin deputatları Kamran Nəbizadə və Ülviyyə Ağayeva çıxış edərək yeni dərs ilinin başlanması münasibətilə müəllim və şagirdləri, valideynləri təbrik edərək onlara gələcək dərslərində uğurlar arzulamışlar.

Rayon İcra Hakimiyyəti Başçısının müavini Gulaya Həsənova, təhsil şöbəsinin müdiri Nizaməddin Babanlı müəllim və şagirdləri təbrik etmişlər.

Məktəb-liseyin direktoru Tahirə Comərdova, valideyn komitəsinin sədri Afaq Bayramova, dil-ədəbiyyat müəllimi Həcər Nağdalıyeva, 695 balla ali məktəbə qəbul olmuş məktəbin məzunu Kamil Budaqovun bibisi Tamilla Poladlı çıxış edərək məktəb binasını əsaslı şəkildə təmir etdirdiyinə, onlara daim diqqət və qayğı ilə yanaşdığına görə rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova müəllim və şagirdlər, valideynlər adından öz dərin minnətdarlıqlarını bildirmişlər.

Məktəbin məzunu Həbibə Məmmədzadənin nənəsi Leyla İsmayılova çıxış edərək nəvəsinin yüksək bal toplayaraq Türkiyənin Boğaziçi Universitetinə qəbul olmasına görə əməyi olan bütün müəllimlərə öz dərin minnətdarlığını bildirmişdir.



Sonra qonaqlar şəhər Səməd Vurğun adına 2 saylı tam orta məktəbə gəlmişlər. Məktəbin direktoru Murğuz Mustafayev çıxış edərək ötən tədris ilində qazanılan uğurlardan söz açmışdır.

Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov yeni dərs ilinin başlanması münasibətilə müəllim və şagirdləri təbrik etdikdən sonra ölkəmizdə, eləcə də rayonumuzda təhsilə göstərilən diqqət və qayğıdan danışmışdır.

Milli Məclisin deputatları Kamran Nəbizadə və Ülviyyə Ağayeva çıxış edərək söylənilən təbriklərə qoşularaq şagirdlərə gələcəkdə Vətənimiz üçün layiqli vətəndaş kimi böyüməyi, təlim və tərbiyə almağı arzulamışlar.

Hər iki məktəbdə şagirdlər Vətənə, şəhidlərə və müstəqilliyimizə həsr olunmuş şeirlər oxumuşlar.



**BDU-nun Qazax filialında 15 sentyabr Bilik Günü münasibətilə tədbir keçirilmişdir. Tədbirdə Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Milli Məclisin deputatları Kamran Nəbizadə, Ülviyyə Ağayeva, sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov, RİHB aparatının məsul işçiləri, müəllim-tələbə kollektivi və KİV nümayəndələri iştirak etmişdir.**




## BDU-nun Qazax filialında Bilik Günü




Qonaqları filialın tələbələri gül dəstələri ilə qarşılamışlar. Tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin filialın binasında yerləşən büstü önünə gül dəstələri qoyaraq əziz xatirəsini yad etmişlər.

Dövlət Himni səsləndikdən sonra BDU Qazax filialının direktoru, coğrafiya elmləri doktoru, professor Vüsət Əfəndiyev tədbiri giriş sözü ilə açaraq müəllim və tələbələri yeni dərs ilinin başlanması münasibətilə təbrik etmişdir. Qeyd etmişdir ki, bu gün Azərbaycan təhsili özünün yeni inkişaf mərhələsini yaşamaqdadır. Prezident İlham Əliyevin 29 aprel 2016-cı il tarixli sərəncamı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Qazax filialının Bakı Dövlət Universitetinin Qazax filialı kimi fəaliyyətə başlaması bu söylədiklərimizin əyani sübutudur. Yeni tədris ilində filialın tədris binası əsaslı şəkildə təmir olunmuş, müəllim və tələbələr üçün yüksək şərait yaradılmışdır. Bunun nəticəsidir ki, filialı seçən tələbələrin sayı durmadan artır. Əgər ötən tədris ilində filiala 138 tələbə daxil olmuşdusa, bu rəqəm 2017-2018-ci tədris ilində artaraq 390-a çatmışdır. Həmin tələbələrdən 146-sı ixtisas seçimində birinci, 70-i ikinci və ya üçüncü yerdə BDU-nun Qazax filialını göstərmişdir. Bu gün BDU-nun Qazax filialına qəbul olan tələbələrdən 76-sı Qazax rayonundan, 46-sı Bakı şəhərindən, 28-i Ağstafa, 26-sı Tovuz, 19-u Gəncə şəhər və digər rayonlardandır.




Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbirdə çıxış edərək yeni dərs ilinin başlanması münasibətilə tələbələri, onların valideynlərini, müəllimləri səmimi qəlbdən təbrik etmiş, I kursa daxil olan tələbələrə yenicə qədəm qoyduqları müstəqil həyatda daha böyük uğurlar arzulamışdır. Bildirmişdir ki, "Təhsil millətin gələcəyidir" ifadəsini şüar səviyyəsinə yüksəldən ulu öndər respublikanın gələcək inkişafının məhz təhsillə bağlı olduğunu vurğulamış və rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanda təhsilin inkişafına xüsusi qayğı ilə yanaşmışdır. Heydər Əliyev siyasətinin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev də ölkədə təhsil siyasətini uğurla davam etdirərək "Neft kapitalını insan kapitalına çevirək" devizi altında təhsilin inkişafına böyük önəm verməkdədir. Mən əminəm ki, siz gənclər də göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək öz bilik və bacarıqlarınızı, əldə etdiyiniz nailiyyətləri hər zaman artıracaqsınız. Bu işdə hər birinizə uğurlar arzu edirəm.

Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmovun yeni dərs ilinin başlanması münasibətilə filialın kollektivinə göndərdiyi təbrik məktubunu filialın tələbələrlə iş və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Qasım Əliyev oxumuşdur.

Milli Məclisin deputatları Kamran Nəbizadə və Ülviyyə Ağayeva çıxış edərək filialın müəllim-tələbə kollektivini təbrik etmiş, müstəqil Azərbaycanın çiçəklənməsi naminə gələcəkdə layiqli ixtisaslı mütəxəssislər kimi yetişməyi arzulamışlar.

BDU-nun Qazax filialında riyaziyyat və informatika kafedrasının müdiri, professor Hüseyn Xəlilov, 586 balla tələbə adını qazanmış, riyaziyyat və informatika fakültəsinin I kurs tələbəsi Səbinə Camalova, valideyn Fərman İsmayılov çıxış edərək göstərilən diqqət və qayğıya görə ölkə başçısına öz dərin minnətdarlığını bildirmişdir.




Tədbirdə I kursa ən yüksək balla daxil olan tələbələrə tələbə bileti təqdim olunduqdan sonra qonaqlar filialla, burada aparılan abadlıq işləri ilə tanış olmuşlar.



## Qazaxda yeni bir ənənənin əsası qoyulmuşdur

**Mənfur düşmənlə 168 km sərhəddə yerləşən Qazax rayonu Azərbaycan-Ermənistan-Dağlıq Qarabağ münaqişəsi başlayandan bəri 283 şəhid vermişdir. Onlardan 5 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.**

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov fəaliyyətə başladığı ilk gündən istər şəhərdə, istərsə də kəndlərimizdə olan şəhid qəbirlərini və Şəhid Xiyabanlarını əsaslı şəkildə təmir etdirmiş, şəhid ailələrinə daim diqqət, qayğı göstərmiş və bu proses bu gün də davam etməkdədir. Bir neçə ay bundan öncə İcra Başçısının tapşırığına əsasən şəhərin mərkəzində yerləşən Şəhidlər Xiyabanının əsaslı şəkildə yenidən qurulmasına başlanılmışdır. Milli Qəhrəmanların və şəhidlərin adları qeyd olunmuş lövhələr vurulmuş, yaşıllıq salınmış və yeni işıqlandırma sistemi quraşdırılmışdır.

Yeni dərs ili ərəfəsində rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun təşəbbüsü ilə Qazaxda yeni bir ənənənin bünövrəsi qoyulmuşdur. Qərara alınmışdır ki, hər yeni dərs ili ərəfəsində məktəblilər Şəhidlər Xiyabanını ziyarət etsinlər. Məqsəd böyüməkdə olan gənc nəsildə milli vətənpərvərlik ruhunu daha da inkişaf etdirmək, məktəblilərin mübariz ruhda tərbiyə olunmasını təmin etməkdir.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov və tədbir iştirakçıları bir-bir





şəhidləri yad edərək onların lövhələri önünə gül dəstələri qoymuşlar.

Şəhidlərin ruhuna dua oxunduqdan sonra əziz xatirələri bir dəqiqəlik sükutla yad edilmişdir.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək qeyd etmişdir ki, şəhidləri yad etmək, onların xatirəsini anmaq hər bir insanın vətəndaşlıq borcudur. Öz canlarından keçmiş bu igid insanlar Azərbaycan torpaqlarının ərazi bütövlüyü uğrunda şəhid olmuşlar. Şəhidlərin keçdiyi ömür yolu hər birimiz üçün nümunə olmalıdır. Ona görə də hər bir gənc mərd və mübariz böyüməli, Vətənin müdafiəsinə hər an hazır olmalı, əgər lazım gələrsə öz canından keçməyi belə bacarmalıdır. Mən inanıram ki, bu tədbir hər bir uşaq və yeniyetmələrin yaddaşında əbədi iz qoyacaq, onların qəlbində Vətənə məhəbbət və şəhidlərə ehtiram hissini daha da artıracaqdır.

Tədbirin aparıcısı, rayon təhsil şöbəsinin aparıcı məsləhətçisi Rasim Carçıyev çıxış edərək belə bir vətənpərvərlik ruhunda olan əhəmiyyətli tədbirin keçirilməsinə görə rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova bütün təhsil işçiləri və məktəblilər adından öz dərin minnətdarlığını bildirmişdir.

Şəhid atası Sarı Hüseynov, şairlərdən Zaməddin Ziyadoğlu, Tamilla Poladlı çıxış edərək rayon rəhbərliyinə öz minnətdarlıqlarını bildirmiş, şəhidlərə yazdıqları şeirləri oxumuşlar.

Sonra şəhər Namiq Vəliyev adına 5 saylı tam orta məktəbin X sinif şagirdi Səma Əfəndiyeva, Mehdi Hüseyn adına məktəb-liseyin VII sinif şagirdi Rəhimə Əhmədova, Firuddin Şamoyev adına 4 saylı tam orta məktəbin IX sinif şagirdi Nuray Məmmədova, Qaratel Hacımahmudova adına ümumi orta məktəbin VI sinif şagirdi Sədaqət Camalova, VII sinif şagirdi Əsgər Hacıyev, IX sinif şagirdi Fidan Musayeva, Zahid Mahmudov adına Yuxarı Salahlı kənd tam orta məktəbin XI sinif şagirdlərindən Günel Bayramova, Arzu İbrahimova, IV sinif şagirdi Aysu Namazova, VII sinif şagirdi Fidan Hüseynli şəhidlərə, Vətənə həsr olunmuş şeirləri səsləndirmişlər.

Yeni dərs ili ərəfəsində məktəblilərin şəhidləri yad etməsi məktəblilər, onların valideynləri, şəhid ailələri, müəllimlər, ictimaiyyətin müxtəlif təbəqələrinin nümayəndələri tərəfindən yüksək qiymətləndirilmişdir. Qazaxda yeni bir ənənənin əsası qoyulmuşdur.

Məlumat üçün qeyd edim ki, Qazaxda 31 məktəb şəhid adını daşıyır.

**Elçin İSMAYIL**

# Tələbə adınız mübarək




**Qazaxda rayon İcra Hakimiyyəti başçısının 500-dən və 600-dən yuxarı bal toplayaraq ali təhsil müəssisələrinə daxil olmuş tələbələrlə görüşü keçirilmişdir.**

Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq yüksək bal toplayaraq ali təhsil müəssisələrinə qəbul olmuş tələbələri, onların müəllim və valideynlərini səmimi qəlbdən təbrik etmiş, tələbələrə yenicə qədəm qoyduqları müstəqil həyatda daha böyük uğurlar, möhkəm cansağlığı, ailə səadəti və xoşbəxtlik arzulamışdır. Bildirmişdir ki, "Təhsil millətin gələcəyidir" ifadəsini şüar səviyyəsinə yüksəldən ulu öndər respublikanın gələcək inkişafının məhz təhsillə bağlı olduğunu vurğulamış və rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanda təhsilin inkişafına xüsusi qayğı ilə yanaşmışdır. İstər Azərbaycan Respublikasına rəhbərlik etdiyi 70-80-ci illərdə, istərsə də müstəqil Azəbaycan Respublikasına rəhbərlik etdiyi illərdə təhsil prioritet sahə olaraq diqqət mərkəzində olmuşdur. Heydər Əliyev siyasətinin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev də ölkədə təhsil siyasətini uğurla davam etdirərək "Neft kapitalını insan kapitalına çevirək" devizi altında təhsilin inkişafına böyük önəm verməkdədir. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın qəbul olunması və proqram çərçivəsində gənclərin inkişaf etmiş ölkələrin nüfuzlu universitetlərində təhsil almaları üçün vəsaitin ayrılması məhz Azərbaycanın gələcək inkişafına qoyulan investisiyadır. Respublikanın hər yerində olduğu kimi "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində rayonumuzda da təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi



ötən dövr ərzində diqqət mərkəzində olmuş, rayonun ümumtəhsil məktəblərinin böyük əksəriyyəti yeni, daha müasir binalarda fəaliyyət göstərməkdədir. Təhsilə göstərilən qayğının nəticəsidir ki, rayonumuzda məzunların ali məktəblərə qəbul faizi də ilbəil artmaqdadır. 2016-2017-cı tədris ilində 777 nəfər məzun olmuşdur ki, onlardan 432 nəfər ali məktəblərə sənəd vermiş və sevindirici haldır ki 264 məzun ali məktəblərə qəbul olmuşlar. Bunlardan 500-dən çox bal toplayan məzunların sayı 56, 600-dən çox bal toplayanların sayı isə 14 olmuşdur. Tədbirimizə rayonumuz üzrə 56 nəfər 500-700 bal intervalında nəticə göstərən məzunlarımız toplaşmışlar. Onları bir yerə toplamaq, onlarla söhbət aparmaq, bundan sonra da harada təhsil almalarından asılı olmayaraq yüksək təhsil almalarını tövsiyə etmək, onlara uğurlar diləmək biz ziyalıların borcudur.

Əziz balalar, biz sizinlə fəxr edirik. İnanıram ki, siz təhsil alacağınız ali məktəbdə rayonumuzun adını həmişə yüksəklərə qaldıracaqsınız. Bu gün dövlətimizin siyasətinin əsas strateji xəttini təhsilin inkişafı təşkil edir. Mənə elə gəlir ki, bu işdə hər birimizin fəallığı hiss olunmalıdır. Dünyada baş verən qlobal böhranlar, iqtisadi problemlər Azərbaycana bir o qədər də təsir göstərməmişdir. Bunun səbəbi ölkəmizdə qabiliyyətli kadr potensialının yetişməsi, təhsilin inkişafıdır. Dəfələrlə möhtərəm Prezidentimiz öz çıxışlarında "Biz neft kapitalını insan kapitalına çevirməliyik" söyləmişdir. Bu kapital sizsiniz, xalqımız öz gələcəyini sizin kimi savadlı, qabiliyyətli, bacarıqlı gənclərə etibar edəcək.

Sonra çıxışlar olmuşdur. BDU-nun Qazax filialının direktoru, coğrafiya elmləri doktoru, professor Vüsət Əfəndiyev, Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, əmədar incəsənət xadimi, şair Barat Vüsal, Qazax RTŞ-nin aparıcı məsləhətçisi Rasim Carçıyev, şəhər Mehdi Hüseyn adına məktəb-liseyin direktoru Tahirə Comərdova, yüksək bal toplamış tələbələrdən Kamil Budaqov (695) və Gülər Hacıyeva (667) çıxış etmişlər.

Sonda rayon üzrə 500-dən və 600-dən yuxarı bal toplamış tələbələrə, onların ibtidai sinif müəllimlərinə, oxuduqları məktəblərin direktorlarına və işçi qrupunun üzvlərinə (100 nəfərdən çox) gül dəstələri və qiymətli hədiyyələr verilmişdir.

Şairlərdən Zaməddin Ziyadoğlu, Tamilla Poladlı tələbələrə həsr etdikləri şeirləri oxumuşlar.

Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbir-görüşə yekun vuraraq bütün tələbələri bir daha səmimi qəlbdən təbrik etmiş, gələcək işlərində böyük uğurlar arzulamışdır.

**Elçin İSMAYIL**

# Müəllimlərin ənənəvi sentyabr konfransı keçirilmişdir

**Qazax rayonunda müəllimlərin ənənəvi sentyabr konfransı keçirilmişdir. Konfransda Təhsil Nazirliyinin baş məsləhətçisi İsaq Məmmədov, 6 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinin rəisi Emin Əliyev, təhsil sahəsində çalışan qabaqcıl müəllimlər, məktəb direktorları, KİV nümayəndələri iştirak etmişlər.**



Tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq əziz xatirəsini böyük ehtiramla yad etmişlər.

Dövlət Himni səsləndikdən sonra Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək yeni dərs ilinin başlanması münasibətilə bütün təhsil işçilərini təbrik etmişdir. Qeyd etmişdir ki, bu gün Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın təhsil sistemi özünün yeni dövrünü yaşayır. Dövlət başçısının uzaqgörən siyasəti və birbaşa rəhbərliyi ilə respublikamızda təhsil müəssisələri şəbəkəsi daha da genişləndirilir, yeni məktəb binaları tikilir, onların maddi-texniki bazası möhkəmləndirilir, təhsil işçilərinə daha yüksək səviyyədə diqqət və qayğı göstərilir. Bu gün təhsil sahəsində əldə edilən nailiyyətlər, qazanılan uğurlar dövlətin təhsil sahəsinə göstərdiyi böyük dəstək nəticəsində əldə edilən irəliləyişdir.



Rayon təhsil şöbəsinin müdiri Nizaməddin Babanlı geniş hesabat məruzəsi ilə çıxış edərək 2016-2017-ci tədris ilində qazanılan uğurlardan, həyata keçirilən tədbirlərdən danışmışdır. Qeyd etmişdir ki, ötən tədris ilində əldə edilən uğurların bünövrəsində rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun təhsilə göstərdiyi diqqət və qayğı dayanır. Rayon rəhbərliyinin təşəbbüsü ilə yaradılmış işçi qrupunun fəaliyyəti isə təqdirəlayiqdir. İşçi qrupunun gərgin zəhməti sayəsində bütün məktəblərdə şagirdlərin dərsə davamiyyəti yüksəlmiş, müəllimlərin keçdikləri dərslərin keyfiyyəti artmışdır. Təhsilə göstərilən qayğının nəticəsidir ki, rayonumuzda məzunların ali məktəblərə qəbul faizi də ilbəil artmaqdadır. 2016-2017-cı tədris ilində 777 nəfər məzun olmuşdur ki, onlardan 432 nəfər ali məktəblərə sənəd vermiş və sevindirici haldır ki 264 məzun ali məktəblərə qəbul olmuşlar. Bunlardan 58 məzun 500-dən, 14 məzun isə 600-dən çox bal toplamışlar.

Məruzə ətrafında çıxışlar olmuşdur. Məktəb-liseyin direktoru Tahirə Comərdova, Daş Salahlı kənd 1 saylı tam orta məktəbin direktoru, diaqnostik qiymətləndirmədə ən yüksək nəticə - 60 bal toplamış Söylü Xəlilova rəhbərlik etdikləri məktəblərdə qazanılan uğurlardan danışmışlar.

Yuxarı Salahlı kənd tam orta məktəbin məzunu, qəbul imtahanlarında 631 bal toplamış Orxan Qayıbov öz çıxışında Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova onlara göstərdiyi diqqət və qayğıya görə bütün məzunlar adından minnətdarlığını bildirmişdir.

Canalı kənd tam orta məktəbin fransız dili müəllimi, müəllimlərin işə qəbulunda ən yüksək (57 bal) nəticə əldə etmiş Türkan Cəfərova söz alaraq işə qəbul prosesindən danışmış və müəllim andı içmişdir.

Təhsil Nazirliyinin baş məsləhətçisi İsaq Məmmədov çıxış edərək təhsilin indiki vəziyyətini təhlil etmiş, təhsildəki yeniliklərdən, aparılan islahatlardan ətraflı söz açmışdır.

Sonra konfransın qərar layihəsi oxunmuş və səsə qoyularaq yekdilliklə qəbul edilmişdir. Rayon təhsil şöbəsi şurasının tərkibi oxunmuşdur.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə konfrans iştirakçıları adından müraciət qəbul olunmuşdur.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov konfransa yekun vuraraq qarşıda duran vəzifələrdən danışmış, yeni dərs ilinin başlanması münasibətilə müəllimləri bir daha səmimi qəlbdən təbrik edərək gələcək işlərində uğurlar arzulamışdır.

**Nüşabə HÜSEYNOVA**

# Yeni dərs ilinə hazırlıq müzakirə olunmuşdur

**Qazax Dövlət Sosial-İqtisadi Kollecində yeni dərs ilinə hazırlığın vəziyyəti müzakirə olunmuşdur. Bununla əlaqədar Gənclər Mərkəzində müşavirə keçirilmişdir.**



Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov müşavirəni giriş sözü ilə açaraq ölkəmizdə, eləcə də rayonumuzda təhsilə, onun inkişafına göstərilən diqqət və qayğıdan danışmışdır. Qeyd etmişdir ki, bu gün Azərbaycan təhsili özünün uğurlu inkişaf dövrünü yaşayır. Rayon İcra Hakimiyyəti tərəfindən rayonumuzda təhsilin inkişaf etdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Məktəblərdə təlim və tədris üçün normal şərait yaradılmaqla yanaşı, şagirdlərin dərsə davamiyyətinin artırılması, onların bilik və bacarıqlarının üzə çıxarılması yönümündə də xeyli işlər görülmüşdür. Bir sözlə, çox işlər görülmüş, amma görüləsi işlər də az deyil.

Kollecin direktoru Elşad Quliyev, tədris işləri üzrə direktor müavini Nicat Göyüşov, qeydiyyat, qiymətləndirmə və monitorinq şöbəsinin müdiri Elvira Əfəndiyeva və başqaları çıxış edərək yeni dərs ilinə olan hazırlıqdan danışmış, mövcud problemlər barədə rayon rəhbərliyinə məlumat vermişlər. Qeyd olunmuşdur ki, kollecdə tədrisin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, tələbələrin dərsə davamiyyətinin yaxşılaşdırılması istiqamətində bir sıra mühüm işlər görülməlidir. Eyni zamanda kollecin yerləşdiyi binanın qış mövsümünə hazırlığından da söhbət açılmışdır.

BDU Qazax filialının direktoru, coğrafiya elmləri doktoru, professor Vüsət Əfəndiyev çıxış edərək tövsiyələrini bildirmiş, tədrisin kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəldilməsi istiqamətində məsləhətlərini vermişdir.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov müşavirəyə yekun vuraraq yeni dərs ilinin başlanması münasibətilə kollecin müəllim-tələbə kollektivini səmimi qəlbdən təbrik edərək onlara daha səmərəli fəaliyyət göstərməyi arzulamışdır.

# "Birinci Şıxlı kəndli fermer təsərrüfatı" yeni dərs ilində şagirdləri sevindirmişdir

**"Birinci Şıxlı kəndli fermer təsərrüfatı" MMC-nin direktoru Tərlan Hüseynovun təşəbbüsü ilə xeyriyyəçilik tədbiri həyata keçirilmişdir. Rayonun müxtəlif məktəblərində təhsil alan şagirdlərin bir qrupuna məktəb ləvazimatları ilə birlikdə məktəbli çantası hədiyyə edilmişdir.**

Bu münasibətlə termer təsərrüfatının inzibati binasında keçirilən mərasimdə İcra Hakimiyyətinin, fermer təsərrüfatının məsul işçiləri, şagirdlər və onların valideynləri, KİV nümayəndələri iştirak etmişlər.

Tədbirdə RİHB aparatında ictimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini Məhəmməd Orucov, aparatının məsul işçisi Kəmalə Cəfərova çıxış edərək respublikamızda, eləcə də rayonumuzda təhsilə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan, son bir il yarım ərzində Qazaxda təhsil sahəsində görülmüş işlərdən, qazanılmış uğurlar və əldə olunmuş nailiyyətlərdən danışmışlar. Qeyd etmişlər ki, şagirdlərin keyfiyyətli təhsil almaları üçün onlara hər cür diqqət və qayğı göstərilir. Keçirilən xeyriyyəçilik tədbiri də bunun əyani nəticəsidir.

Sonra məktəb ləvazimatları ilə dolu məktəbli çantaları şagirdlərə hədiyyə olunmuşdur. Məktəblilər və onların valideynləri çox sevindiklərini qeyd edərək ölkə başçısı İlham Əliyevə, rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova dərin minnətdarlıqlarını bildirmişlər. Eyni zamanda belə xeyriyyəçilik fəaliyyətinə görə "Birinci Şıxlı kəndli fermer təsərrüfatı" MMC-nin direktoru Tərlan Hüseynovdan da razı qaldıqlarını söyləmişlər.

**Xuraman ƏZİMOVA**

# GÖYƏZƏN.AZ saytının 1 illiyi qeyd olunmuşdur

**Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun təşəbbüsü ilə GÖYƏZƏN.AZ saytının fəaliyyətə başlamasının 1 illiyi qeyd olunmuşdur. İcra Hakimiyyətində keçirilən tədbirdə aparatın məsul işçiləri, rayonda fəaliyyət göstərən jurnalistlər, şairlər, ictimaiyyətin müxtəlif təbəqələrinin nümayəndələri iştirak etmişdir.**





Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq GÖYƏZƏN.AZ saytının kollektivini fəaliyyətlərinin 1 illiyinin tamam olması münasibətilə səmimi qəlbdən təbrik etmiş, gələcək işlərində yeni-yeni uğurlar arzulamışdır. Qeyd etmişdir ki, 1 il öncə bu saytı yaratmaqda məqsədimiz oxuculara rayonumuzda keçirilən tədbirlər, aparılan tikinti-quruculuq və abadlıq işləri barədə tam və dolğun şəkildə məlumat çatdırmaq idi. Sevindirici haldır ki, saytın kollektivi üzərilərinə düşən bu vəzifənin öhdəsindən layiqincə gəldi. Fəaliyyətə başlamasının 1 illiyini qeyd etdiyimiz GÖYƏZƏN.AZ saytı nəinki qazaxlıların, eləcə də rayondan kənarda yaşayan yüzlərlə, minlərlə həmyerlilərimizin ən düzgün və ən operativ məlumat mənbəyinə çevrilmişdir. Oxucular bu sayt vasitəsilə asanlıqla rayonumuzda baş verən yeniliklər barədə məlumat alır, portal sayəsində rayonumuz haqqında lazımi məlumatları əldə edirlər. Bu baxımdan GÖYƏZƏN.AZ saytının gördüyü işlər əhatəli və genişdir.

GÖYƏZƏN.AZ saytının baş redaktoru Elçin İsmayıl çıxış edərək portalın yaranmasından danışmış, ötən 1 il ərzində əldə edilən nailiyyətlər barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir. Qeyd etmişdir ki, rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun təşəbbüsü və xeyir-duası ilə yaradılmış GÖYƏZƏN.AZ saytı rayonda aparılan bütün tikinti-quruculuq və abadlıq işlərini, kənd təsərrüfatının bütün sahələrini, keçirilən tədbirləri, əhalinin maddi rifah halının yaxşılaşdırılması istiqamətində görülən işləri saytda geniş şəkildə işıqlandırır. Bu səbəbdən də rayon sakinləri, rayonumuzdan kənarda yaşayan həmyerlilərimiz, izləyicilər həmin tədbirlər barədə dürüst və dəqiq məlumatlar ala bilirlər. Rayonumuzda keçirilən bütün tədbirlər, aparılan bütün tikinti-quruculuq işləri operativ olaraq portalda yerləşdirilir. Bütün bunlara görədir ki, portal bu gün ilkin məlumat mənbəyi funksiyasını yüksək səviyyədə həyata keçirir. Görülən işlərin nəticəsidir ki, respublikamızda fəaliyyət göstərən müstəqil Kütləvi İnformasiya Vasitələri, hətta televiziyalar belə ilkin məlumat olaraq GÖYƏZƏN.AZ saytının materiallarından istifadə edilər ki, bu da olduqca təqdirəlayiq haldır. Bütün bunlar portalın nə qədər mühüm əhəmiyyət daşıdığını aydın şəkildə göstərir. GÖYƏZƏN.AZ saytı Qazaxın virtual aləmdə təmsilçisidir.

Saytın yaranmasının 1 illiyi münasibətilə tədbir keçirdiyinə görə kollektiv adından öz dərin minnətdarlığını bildirən Elçin İsmayıl portalın bundan sonra da öz işini daha da təkmilləşdirərək izləyicilərinin sayını artıracağını və rayonda aparılan tikinti-quruculuq və abadlıq işlərinin daha geniş və obyektiv işıqlandırılacağını qeyd etmişdir.

Qazax rayon İcra Hakimiyyəti Başçısının müavini Gulaya Həsənova, Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal, şairlərdən Cavanşir Rüstəm, Tamilla Poladlı, Kazım Kazımlı, Bilal Qoca, Səhlədar Hidayətoğlu, jurnalistlərdən Sərhəd Məmmədov, Nemət Novruzov, Vəkil Rüstəm, Hacı Müvəssəqi, Vəzir Pənahov, Sadəddin Həsənov və başqaları çıxış edərək GÖYƏZƏN.AZ saytının kollektivini fəaliyyətə başlamalarının 1 illiyi münasibətilə səmimi qəlbdən təbrik etmiş, gələcək işlərində uğurlar arzu etmişlər.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbirə yekun vuraraq saytın kollektivini bir daha səmimi qəlbdən təbrik etmiş, kollektivə öz tapşırıq və tövsiyələrini vermişdir.

# Milli Məclisin deputatı Ülviyyə Ağayeva Xanlıqlar kənd bağçasında aparılan işlərlə tanış olmuşdur



**Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov və Milli Məclisin deputatı Ülviyyə Ağayeva Xanlıqlar kəndində əsaslı şəkildə təmir olunan körpələr evi-uşaq bağçasında aparılan tikinti-quruculuq işləri ilə tanış olmaq üçün körpələr evinə gəlmişlər.**

Bağçada görülən işlər haqda məlumat verilərək bildirilmişdir ki, binanın dam örtüyü başdan-başa sökülərək yenisi ilə əvəz olunmuşdur. Binanın işıq sistemi təzələnmiş və yeni işıq xətləri çəkilmişdir. Metal məhəcərlər təmir edilərək yararlı hala salınmışdır. Binanın fasadı suvanmış, giriş hissəsindəki tavana lambirin vurulmuşdur. Yaxın günlərdə rənglənmə işlərinə başlanılacaqdır.

İcra Başçısı binanın döşəməsinin də tamamilə dəyişdirilməsini tapşırmış və digər lazım gələn təmir işlərinin aparılması barədə göstəriş vermişdir. Bildirmişdir ki, bağçada uşaqların yatmaları üçün yeni çarpayılar da veriləcəkdir.

Sonra bağçanın kollektivi və kənd sakinləri ilə elə bağçanın qarşısında görüş keçirilmişdir.

Milli Məclisin deputatı Ülviyyə Ağayeva çıxış edərək bildirmişdir ki, sizin qaldırdığınız məsələlərə bir deputat kimi mən çox diqqətlə yanaşıram. Çalışıram ki, seçicilər tərəfindən söylənən fikirlər öz müsbət həllini tapsın. Bu bağça binasının əsaslı şəkildə təmir olunmasına görə rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova öz dərin minnətdarlığımı bildirirəm.

Xanlıqlar kənd tam orta məktəbin tədris işləri üzrə direktor müavini Şayəstə Qurbanova, məktəbin müəllimi Şükufə Məhərrəmova, bağçanın müdiri Fəxrəndə Məmmədova, bağçanın işçisi Fərqanə Haqverdiyeva, valideynlərdən Sevinc Şahbazova çıxış edərək bağçanı əsaslı şəkildə təmir etdirdiyinə və binanın demək olar ki, yenidən qurulmasına göstəriş verdiyinə görə rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova öz təşəkkürlərini çatdırmışlar.



# Milli Məclisin deputatları Kosalar kəndində olmuşlar



**Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Milli Məclisin deputatları Kamran Nəbizadə, Ülviyyə Ağayeva və sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov Kosalar kəndindəki bağçada aparılan təmir işləri tanış olmuşlar.**

Qonaqlara məlumat verilmişdir ki, rayon rəhbərliyinin göstərişinə əsasən əsaslı şəkildə təmir olunan Kosalar kəndindəki bağça binası olduqca yararsız halda idi. 3 briqadanın çalışdığı binada dam örtüyü tamamilə yenilənmiş, daxili və xarici fasad hissələrində aparılan suvaq işləri yekunlaşmışdır. Lazım gələn yerlərdə hörgü işləri də görülmüşdür. Binaya daxil olmaq üçün pilləkan düzəldilmişdir. Otaqlar və foye başdan-başa suvanaraq müasir görkəmə salınmışdır. Bundan əlavə 4 otağın və foyenin döşəmə hissəsinə beton tökülərək laminat vurulması üçün hazırlanmışdır. Binada olan bütün qapılar dəyişdirilərək yeni plastik qapılarla əvəz olunmuşdur. Binada kanalizasiya sistemi quraşdırılmış və 2 ayaqyolu da tikilmişdir. Eyni zamanda 2 mətbəx də düzəldilmişdir. Binada əsas işlər demək olar ki, başa çatdırılmışdır. Yaxın günlərdə rəngləmə işlərinə başlanılacaqdır. Eyni zamanda bağça müasir istilik sistemi ilə də təmin olunacaqdır. Məlumat verilmişdir ki, kənddə fəaliyyət göstərən 3 bağçadan 2-si bu binada yerləşəcəkdir.



İcra Başçısı və deputatlar bağçada aparılan təmir işləri ilə tanış olduqdan sonra sakinlərlə görüşmüşlər.

3 saylı körpələr evi-uşaq bağçasının müdiri Tünzalə Xəlilova, 2 saylı körpələr evi-uşaq bağçasının müdiri Aynur Əliyeva, bağçanın işçilərindən Amalya Hüseynova, Dürrə Süleymanova, valideynlərdən Rübabə Hüseynova, Gülər Musayeva çıxış edərək körpələr üçün belə yüksək şərait yaratdığına görə rayon rəhbərliyinə öz dərin minnətdarlıqlarını bildirmişlər. Qeyd etmişlər ki, təmir edildikdən sonra bizim kəndimizin uşaqları da yüksək səviyyəli şəraiti olan bağçada təlim-tərbiyə alacaqlar.

İcra Başçısı Rəcəb Babaşov çıxış edənləri diqqətlə dinlədikdən sonra bildirmişdir ki, bütün sahələrlə yanaşı, uşaqlara da diqqət və qayğı ilə yanaşılmalıdır. Çalışırıq ki, bu sahədə olan problemləri aradan qaldıraq. Ona görə də kəndlərimizdə olan bağçaları tədricən əsaslı şəkildə təmir etdirir və onları yüksək səviyyəyə çatdırırıq.

Sonra rayon rəhbərliyi və qonaqlar Kosalar kəndində yaradılmış Qazax gənclər futbol klubunun üzvləri ilə görüşmüşlər. Komandanın təşkilatçısı Rayət Əliyev məlumat verərək bildirmişdir ki, 14 yaşlı uşaqlardan ibarət futbol komandası AFFA-nın qeydiyyatından keçmişdir. R.Əliyev komandanın futbolçularını bir neçə dəst geyim formaları, çoxlu sayda top və digər ləvazimatlarla təmin etdiyinə görə komandanın üzvləri adından İcra Başçısı Rəcəb Babaşova öz dərin minnətdarlığını bildirmişdir.

Görüşdə Milli Məclisin deputatı Kamran Nəbizadə və sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov çıxış edərək ölkəmizdə idmana göstərilən diqqət və qayğıdan danışmışlar. Komandanın üzvlərinə idmanla daha ciddi məşğul olmağı və nailiyyətlər qazanmağı tövsiyə etmişlər.

İcra Başçısı Rəcəb Babaşov gənc futbolçulara bundan sonra da lazım gələn diqqət və qayğısını əsirgəməyəcəyini, komandanın üzvlərinə hər cür dəstək göstərəcəyini bildirmişdir.

Görüş başa çatdıqdan sonra İcra Başçısı və qonaqlar İsmayıl Şıxlı adına Kosalar kənd tam orta məktəbin idman zalı ilə də tanış olmuşlar. Uşaq Gənclər İdman Məktəbinin müəllimi Tarıyel Nəsibov məlumat verərək bildirmişdir ki, bu zalda xeyli sayda gənc idmanın sərbəst güləş növü ilə məşğul olur. Lakin göründüyü kimi burada şərait heç də ürəkaçan deyil. İdman zalının əsaslı təmirə və idman ləvazimatlarına ehtiyacı var.

Rayon rəhbərliyi yaxın günlərdə bu məsələyə baxılacağını və təmir işlərinə başlanılacağını bildirmişdir.

# Milli Məclisin deputatları Daş Salahlı kəndində aparılan abadlıq işlərini yüksək qiymətləndirmişlər

**Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Milli Məclisin deputatları Kamran Nəbizadə, Ülviyyə Ağayeva və sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov Xanlıqlar və Kosalar kəndindən sonra Daş Salahlı kəndinə gəlmişlər.**



Qonaqlara məlumat verilmişdir ki, kəndin mərkəzi küçəsindəki bütün evlərin hasarları, darvazaları və su çənləri təmir olunaraq rənglənmişdir. Kəndin ərazisində təmizlik işləri həyata keçirilmişdir.

Qonaqlar kəndin mərkəzində Böyük Vətən Müharibəsində həlak olanların xatirəsinə tikilmiş abidə kompleksində aparılan təmir işləri ilə də tanış olmuşlar. Tədbirdə Qazax Xeyriyyə Cəmiyyətinin sədri İlham Pirməmmədov da iştirak etmişdir. Məlumat verilmişdir ki, olduqca yararsız hala düşmüş bu abidə rayon rəhbərliyinin tapşırığına əsasən əsaslı şəkildə yenidən qurulur. Abidənin üzəri mərmərlə örtülür. Ətrafına tamet daşı döşənir. Lazım gələn digər təmir-bərpa işləri də görülür və görülməsi nəzərdə tutulmuşdur. Abidənin yaxın vaxtlarda yüksək səviyyədə əsaslı şəkildə yenidən qurularaq istifadəyə veriləcəyi bildirilmişdir.



Aparılan təmir-tikinti işləri ilə tanış olduqdan sonra qonaqlar sakinlərlə görüş keçirərək onların arzu və istəklərini dinləmişlər. Şəhid anası Sürəyya Cəbiyeva çıxış edərək şəhidlərə, onların ailələrinə göstərdiyi diqqət və qayğıya görə rayon rəhbərliyinə minnətdarlıq etmişdir. Qeyd etmişdir ki, sizin biz şəhid ailələrinə verdiyiniz dəyər bizim ürəyimizi dağa döndərir.

Kənd sakinlərindən Valodya Qurbanov, Fəxrəddin Mancanov. Kərəm Əsgərov, Araz Əmilov adına Daş Salahlı kənd 1 saylı tam orta məktəbin direktoru Söylü Xəlilova söz alaraq son günlər kəndin simasının başdan-başa dəyişdiyini qeyd etmiş və öz dərin minnətdarlıqlarını bildirmişlər.

Milli Məclisin deputatı Kamran Nəbizadə çıxış edərək sakinlər tərəfindən qaldırılan məsələlərə diqqətlə yanaşıldığını bildirmişdir. Qeyd etmişdir ki, problemlərə həssalıqla yanaşılır və tədricən öz həllini tapır. Bu da son nəticədə həm kəndin simasının dəyişməsinə, həm də əhalinin sosial rifah halının yaxşılaşmasına gətirib çıxarır.

Sonra kənddə əsaslı şəkildə təmir olunmuş 2 və 3 saylı körpələr evi-uşaq bağçalarının binaları ilə tanış olan qonaqlara burada əsaslı şəkildə aparılmış təmir işləri barədə məlumat verilmişdir. Bağça binaları ilə tanış olan qonaqlar həyata keçirilən işləri yüksək qiymətləndirmişlər.

# Mirvarid Dilbazinin 105 illiyi



**Azərbaycanın xalq şairi Mirvarid Dilbazinin anadan olmasının 105 illiyi qeyd olunmuşdur.**

Bununla əlaqədar Qazax rayon İcra Hakimiyyətinin və Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının birgə təşkilatçılığı ilə tədbir keçirilmişdir.

“Fəxri qazaxlılar” parkında keçirilən tədbirdə iştirakçılar M.Dilbazinin parkdakı büstü önünə gül dəstələri qoyaraq xatirəsini yad etmişlər.

Sonra Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq M.Dilbazinin Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərindən, onun zəngin yaradıcılığından söz açmışdır. Bildirmişdir ki, 105 illiyini qeyd etdiyimiz M.Dilbazi Azərbaycanın çoxəsrlik zəngin ədəbiyyatı tarixində öz dəsti-xətti, öz sözü olan sənətkarlardandır. Poeziyamızda silinməz izlər qoymuş bu qüdrətli söz ustasının yaradıcılığındakı humanizm, yüksək insani dəyərlər, vətənpərvərlik onu xalqa sevdirmiş, əsərləri öz layiqli qiymətini almışdır. Bunun nəticəsidir ki, M.Dilbazi yaradıcı qadınlar arasında ilk dəfə “Respublikanın xalq şairi” fəxri adına layiq görülmüşdür. Bu, ulu öndər Heydər Əliyev tərəfindən şairənin yaradıcılığına verilən ən böyük qiymətdir.



Tədbirin aparıcısı, AYB Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal çıxış edərək M.Dilbazinin ədəbiyyatımızdakı xidmətlərindən söz açmışdır.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, şairin qohumu Zaməddin Ziyadoğlu, Xanlıqlar kənd tam orta məktəbin müəllimi İlhamə Allahverdiyeva, M.Dilbazi adına Cəfərli kənd tam orta məktəbin müəllimi Vilayət Rüstəmov şairənin yaradıcılığından söz açaraq onunla bağlı xatirələrini söyləmişlər.

Şairlərdən İbrahim İlyaslı, Tamilla Poladlı, Mübariz Qaragözlü, Məzahir Yaqub, Kazım Kazımlı, Elnur Süleymanlı, Səhlədar Hidayətoğlu, İlham Mansurlu öz yeni şeirlərini oxumuşlar.

Axırda Cəfərli və Xanlıqlar kənd tam orta məktəblərin şagirdlərinin ifasında M.Dilbazinin şeirləri səslənmişdir.

# Ürəklərdə yaşayan Qaratel...



**Qarabağ müharibəsi şəhidi, ”Azərbaycan bayrağı” ordeni ilə təltif olunmuş Qaratel Şəmi qızı Hacımahmudovanın doğum günü qeyd olunmuşdur. Qazaxdakı Şəhidlər Xiyabanında bu münasibətlə keçirilən tədbirdə rayon rəhbərliyi və tədbir iştirakçıları Q.Hacımahmudovanın xiyabandakı şəkli əks olunmuş lövhə önünə gül dəstələri qoyaraq xatirəsini yad etmişlər.**

Sonra Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov giriş sözü ilə çıxış edərək Qazax rayonunda mənfur qonşularımıza qarşı aparılan mübarizədən, bu yolda rayonun yüzlərlə şəhid verməsindən söz açmışdır. Qeyd etmişdir ki, qazaxlılar öz torpaqlarını mərdliklə qorumuş və bu yolda canlarından belə keçmişlər. Ulu öndər Heydər Əliyev bu şücaəti yüksək qiymətləndirərək demişdir: “Siz, əziz qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız”. Bu qiymətli sözlər rayon sakinlərinə verilən ən böyük dəyərdir. Bildirmişdir ki, şəhidlər qəbiristanlıqları səliqə-sahmana salınmış, bu müqəddəs yerlər onların adlarına layiq hala gətirilmişdir. Şəhərdəki, Daş Salahlı, Yuxarı Salahlı, Çaylı, Xanlıqlar kəndlərindəki şəhidlər qəbiristanlıqlarında əsaslı işlər görülmüşdür. Dayandığımız bu yerdə hazırda Şəhidlər Xiyabanı salınır və yaxın vaxtlarda bu iş başa çatdırılacaqdır.

Tədbirin aparıcısı, AYB Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal Q.Hacımahmudovanın keçdiyi şanlı həyat yolundan danışmışdır.

Şəhid Ailələri və Qarabağ Müharibəsi Veteranları İctimai Birliyi Qazax rayon şöbəsinin sədri Xasay Balayev, şəhidin adını daşıyan məktəbin direktoru Yeganə Göyüşova, Qaratelin döyüş yoldaşı Nəsib Nəsibov çıxış edərək Q.Hacımahmudova ilə bağlı xatirələrini danışmış, ürək sözlərini söyləmişlər.

Şairlərdən Zaməddin Ziyadoğlu, Məzahir Yaqublu, Tamilla Poladlı, Səhlədar Hidayətoğlu Qaratelə həsr etdikləri şeirlərini oxumuşlar.

Şəhidin adını daşıyan məktəbli şagirdlərin ifasında Vətənə, Qarabağa, şəhidlərə həsr olunmuş şeirlər səslənmişdir.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbirə yekun vuraraq Q.Hacımahmudovanın, eləcə də Vətən yolunda qurban gedən bütün şəhidlərin xatirələrinin qəlblərdə əbədi yaşadığını, onların ölməz olduğunu bir daha qeyd etmişdir.

# İlk hərbi təyyarəçi Fərrux ağa Qayıbovun anım günü

**“Fəxri qazaxlılar” parkında ilk azərbaycanlı hərbi təyyarəçi Fərrux ağa Qayıbovun həlak olmasının 101-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilmişdir. Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov anım mərasimində iştirak etmək üçün “Fəxri qazaxlılar” parkına gələrək təyyarəçinin büstü önünə gül dəstəsi qoymuş, əziz xatirəsini yad etmişdir. Qəhrəman təyyarəçinin ruhuna dua oxunduqdan sonra xatirəsi 1 dəqiqəlik sükutla anılmışdır.**



Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Fərrux ağa Qayıbovun qəhrəmanlıq dolu həyat yolundan söz açaraq onun qısa, lakin nümunəvi bir ömür sürdüyünü qeyd etmişdir. Bildirmişdir ki, Qazax torpağı nəinki şair və yazıçılar, elm xadimləri yetirmişdir. Eyni zamanda Qazaxda doğulub boya-başa çatmış onlarla insan öz adlarını hərb tarixinə qızıl hərflərlə yazdırmışlar. Belə hərbiçilərdən və qəhrəmanlardan biri də Fərrux ağa Qayıbovdur. Biz onu yad etməklə öz tarixi keçmişimizə, öz hərb tariximizə və qəhrəmanlıq salnaməsinə bir daha öz ehtiramımızı bildiririk.

Sonra tədbirin aparıcısı, Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal F.Qayıbovun Azərbaycan hərb tarixindəki rolundan danışaraq onun qəhrəmanlıq dolu həyatının hər bir gənc üçün nümunə olduğunu bildirmişdir.

Əməkdar müəllim, Səlim Əfəndiyev adına şəhər 1 saylı tam orta məktəbin tarix müəllimi Mustafa Mirzəyev çıxış edərək F.Qayıbovun keçdiyi şanlı həyat yolundan danışmışdır.

Sərbəst güləş üzrə SSRİ idman ustası, əməkdar məşqçi, Azərbaycan Respublikasının Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi Ramiz Tağıyev, Qazax Tarix Diyarşünaslıq Muzeyinin direktoru Gülnaz Alişanova, Aşağı Salahlı kənd tam orta məktəbin hərbi rəhbəri İsəbalı Mustafayev çıxış edərək öz ürək sözlərini bildirmişlər.

AYB-nin üzvü, şair Kazım Kazımlı qəhrəman təyyarəçiyə həsr etdiyi şeiri oxumuşdur.

**Elçin İSMAYIL**

# Ədalət Məhəmmədəli oğlu Nəsibov



Azərbaycan aşıq sənətinin canlı klassiki, ustad aşıq, Əməkdar İncəsənət Xadimi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Ədalət Nəsibov 2017-ci il sentyabrın 14-də uzun sürən ağır xəstəlikdən sonra vəfat etmişdir. 15 sentyabrda Qazax rayonunun Ağköynək kənd qəbiristanlığında dəfn olunmuşdur.

Ədalət Məhəmmədəli oğlu Nəsibov 1939-cu il yanvar ayının 27-də Qazax rayonunda anadan olmuşdur. Saz çalmağı atasından öyrənmiş və gənc yaşlarından fitri istedadı ilə seçilmişdir. Qısa müddətdə tanınmış, şöhrət qazanmışdır. Xalq şairi Səməd Vurğun onun çalğısının vurğunu olmuşdur.

Türk yazıçısı Əziz Nesin onun haqqında söyləmişdir: "Ədalətin ifası təkrarsız həyat kimidir. Onun üzü daim təzəliyədir, sonu gülüstanlara çıxan dağ çayına bənzəyir. Ələsgər aşiq, söz sənətində kimdirsə, Ədalət də saz sənətində odur".

XX əsrin ortalarından sənətə gələn Ədalət Nəsibov Azərbaycanın aşıq sənətində özünəməxsus dəst-xətti ilə seçilən, saz ifaçılığına yenilik gətirən və özünün məktəbini yaradan sənətkardır. O, "Qaytarma", "Baş sarıtel", "Ruhani", "Yanıq Kərəm" və başqa saz havalarının bənzərsiz ifaçısıdır. O, Azərbaycan solo saz ifaçılığının təkrarsız və əzəmətli simalarından biridir. Bu sənətə gələnlərin böyük əksəriyyəti onu özünə müəllim hesab edir, onun sənət yolunu davam etdirirlər.

Ə.Nəsibov Azərbaycan mədəniyyətini, aşıq sənətini dünyanın bir çox ölkələrində ləyaqətlə təmsil etmişdir. Fransa, İtaliya və Avropanın digər ölkələrində bənzərsiz ifaları ilə sazımızı sevdirmişdir. YUNESKO tərəfindən onun ifaları ayrıca lentə alınmışdır.

Hələ sağlığında ikən hər sənətkara nəsib olmayan bir zirvəyə ucalan Ədalət Nəsibov təkcə Azərbaycanda deyil, Türkiyədə, İranda, Gürcüstanda, Orta Asiya respublikalarında - bir sözlə, sazın ruhu duyulan hər yerdə yaxşı tanınmış, sevilmiş, ona hər yerdə Dədə Ədalət deyə müraciət etmişlər.

Ədalət Nəsibovun bənzərsiz ifaları bu gün həm də Azərbaycan kinosunun "Yeddi oğul istərəm" və digər filmlərində yaşayır.

Ədalət Nəsibovun aşıq yaradıcılığı sahəsindəki xidmətləri dövlət tərəfindən layiqincə qiymətləndirilmişdir. O, "Əməkdar İncəsənət Xadimi" fəxri adına və Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüş, haqqında kitablar yazılmış, filmlər çəkilmişdir.

Böyük ustadın əziz xatirəsi qazaxlı ziyalıların, onu tanıyanların, yaxınlarının və bütövlükdə sənətsevərlərin qəlbində daim yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

# Aşıq Ədalət Nəsibov Qazaxda torpağa tapşırılmışdır







**Qazaxda ustad Aşıq Ədalət Nəsibovla vida mərasimi keçirilmişdir. Mədəniyyət Mərkəzində keçirilən vida mərasimində Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Milli Məclisin deputatları Kamran Nəbizadə, Ülviyyə Ağayeva, sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov, "Qazax" Xeyriyyə İctimai Birliyinin sədri İlham Pirməmmədov, Bakı Dövlət Universiteti Qazax filialının direktoru Vüsət Əfəndiyev və filialın müəllim-tələbə kollektivi, RİHB aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri, görkəmli aşığın ailə üzvləri və KİV nümayəndələri iştirak etmişdir.**

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov vida mərasimində çıxış edərək bildirmişdir ki, Ədalət Nəsibov Azərbaycan mədəniyyətini, aşıq sənətini dünyanın bir çox ölkələrində təmsil edib. YUNESKO <http://apa.az/tag/UNESCO> tərəfindən onun ifaları ayrıca lentə alınmışdır. Ədalət Nəsibovun aşıq yaradıcılığı sahəsindəki xidmətləri dövlət tərəfindən qiymətləndirilmişdir. O, "Əməkdar İncəsənət Xadimi" fəxri adına və Azərbaycan Prezidentinin fərdi təqaüdünə layiq görülmüş, haqqında kitablar yazılmış, filmlər çəkilmişdir. Ədalət Nəsibov bizim aramızda olmasa da, o, daim qəlblərdə yaşayacaq və onun yaradıcılığı gənc aşıqlar üçün bir örnək olacaqdır.

Milli Məclisin deputatı Kamran Nəbizadə, "Qazax" Xeyriyyə İctimai Birliyinin sədri İlham Pirməmmədov, Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal, Azərbaycan Aşıqlar Birliyi Qazax rayon bölməsinin sədri Camoy Qurbanov, Azərbaycan Aşıqlar Birliyinin sədr müavini Məhəmmədəli Məşədiyev, şair Zaməddin Ziyadoğlu və başqaları çıxış edərək Ədalət Nəsibov haqqında ürək sözlərini qeyd etmişlər.



Ustad aşığın oğlu Hekayət Nəsibov çıxış edərək dəfni yüksək səviyyədə təşkil etdiyinə və onların kədərinə dərindən şərik olduğuna görə rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova ailəsi adından öz dərin minnətdarlığını bildirmişdir.

Vida mərasimindən sonra Aşıq Ədalət vəsiyyətinə uyğun olaraq Qazaxda Ağköynək kənd qəbiristanlığında "Yanıq Kərəmi" havasının sədaları altında torpağa tapşırılmışdır. Mədəniyyət Mərkəzinin yanında mağar qurulmuş, ehsan verilmişdir.

## YOLA SALDI

Susdu həmişəlik sazın Kərəmi,
Get, yola salmağa çağır Ləléni,
Belə ağlamazlar qardaş, öləni
Dodaq ağı dedi, dil yola saldı.

Sən demə, var imiş belə bir gün də,
Qan-yaş tökdü ürək ömrün köçündə.
Tabutu yeridi əllər üstündə,
Vaxtilə sıxdığı əl yola saldı.

Aylara, illərə bölmə dar ömrü,
Dahilər həmişə yaşar, var ömrü,
Zamanla ölçülmür sənətkar ömrü,
Ay boynunu bükdü, il yola saldı.

Tanrıdı dünyaya, insana hakim,
Kim yola salacaq sazsız, yarı kim?
Son dəfə inlədi, yandı sarı sim,
Təzənə qırıldı, tel yola saldı.

Sağ ikən qazandı alqış, Ədalət,
Qara saza vurdu naxış, Ədalət,
Qazağın özüydü Aşıq Ədalət,
Elin oğlu idi, el yola saldı.

**Elcin İSMAYIL**
**23 sentyabr 2017-ci il.**

# Təmir işləri yüksək səviyyədə aparılır

**Qazax rayonunda tikinti-quruculuq işləri gündən-günə daha geniş vüsət alır. Artan templə davam edən bu yenidənqurma işləri şəhərlə yanaşı, kəndlərdə də davam etdirilir. Şəhər mərkəzindən tutmuş sərhəd kəndlərinə qədər, ən ucqar yaşayış məntəqəsinə kimi bütün hər yerdə bir yenilik hiss olunur.**

Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov rayonda aparılan tikinti-quruculuq işləri ilə tanış olmaq üçün həmin ərazilərdə olmuşdur. İcra başçısı ilkin olaraq Daş Salahlı kəndinə gəlmiş və Araz Əmilov adına Daş Salahlı kənd 1 saylı tam orta məktəbin həyətində tikilmiş Təhlükəsiz Oyun Meydançası ilə tanış olmuşdur.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qazax rayon bölməsinin sədri Qurban Qurbanlı rayon rəhbərinə məlumat verərək bildirmişdir ki, meydança Azərbaycan Qızıl Aypara Cəmiyyətinin layihəsi əsasında inşa olunmuşdur. Meydançanın tikintisində məqsəd budur ki, uşaqlar asudə vaxtlarında təhlükəli yerlərə getməsinlər, idmanla məşğul olsunlar. Qeyd etmişdir ki, layihə Litvanın Azərbaycandakı səfirliyinin əməkdaşlığı sayəsində həyata keçirilmişdir. Bildirmişdir ki, bu, rayonumuzda inşa edilən sayca 12-ci Təhlükəsiz Oyun Meydançasıdır.

Sonra Rəcəb Babaşov kəndin mərkəzində Böyük Vətən Müharibəsində həlak olanların xatirəsinə tikilmiş abidə kompleksin təmiri ilə tanış olmuşdur. Olduqca yararsız hala düşmüş bu abidə rayon rəhbərliyinin tapşırığına əsasən əsaslı şəkildə yenidən qurulur. Abidənin üzəri mərmərlə örtülür. Lazım gələn digər təmir-bərpa işləri də görülür və görülməsi nəzərdə tutulmuşdur. Rayon rəhbərliyinə məlumat verilmişdir ki, abidə yaxın vaxtlarda yüksək səviyyədə əsaslı şəkildə yenidən qurularaq istifadəyə veriləcəkdir.



Abidə komplekslə tanış olduqdan sonra Rəcəb Babaşov Abbasbəyli kəndinə gəlmiş və burada inşa olunmuş tibb məntəqəsinə baş çəkmişdir. Rayon rəhbərinə məlumat verilmişdir ki, məntəqə "Türkkızılayı"nın əməkdaşlığı ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən tikilmişdir. Yüksək səviyyədə inşa edilmiş məntəqə iki otaq və dəhlizdən ibarətdir.

Rayon rəhbərliyi hər iki tikilinin inşasından razı qaldığını bildirərək tapşırıq və tövsiyələrini vermişdir.

Sonra İcra Başçısı şəhərə gələrək N.Nərimanov yaşayış massivindəki 39 saylı binanın təmiri ilə tanış olmuşdur. Binada yaşayan sakinlər görülən işlərdən razı qaldıqlarını qeyd edərək aparılan təmir işlərinə görə rayon rəhbərliyinə öz dərin minnətdarlıqlarını bildirmişlər.

"Göy bina" deyilən ərazidə də sakinlər Rəcəb Babaşovu böyük səmimiyyətlə qarşılamışlar. Buradakı çoxmənzilli binalarda aparılan təmir-bərpa və tikinti-quruculuq işlərinə görə rayon rəhbərliyinə binalarda yaşayan bütün sakinlər adından öz dərin minnətdarlıqlarını bildirmişlər. Qeyd etmişlər ki, binaların fasad hissəsi rənglənmiş, bloklar əsaslı şəkildə təmir olunmuş, dam örtüyü başdan-başa yenilənmişdir. Bir sözlə, binada lazım gələn bütün təmir işləri yüksək səviyyədə həyata keçirilmişdir. Yaşamaq üçün hər cür şərait yaradılmışdır. Ona görə də bu gün bu çoxmənzilli binaları sözün yaxşı mənasında tanımaq olmur.

Rəcəb Babaşov ərazidəki bütün binaları gəzərək təmir işləri ilə yaxından tanış olduqdan sonra sakinlərlə də görüşmüşdür. Bildirmişdir ki, bu gün rayonda məcburi köçkünlərin rahat yaşamaları üçün lazım gələn bütün tədbirlər həyata keçirilir. Çalışırıq ki, bu qəbildən olan insanlar asudə və rahat yaşasınlar.

# Xanlıqlar, Ağköynək və Qarapapaq kəndlərinə içməli su çəkilmişdir

**Qazax rayonunun Xanlıqlar kəndinə içməli su çəkilmişdir. Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov bu münasibətlə Xanlıqlar kəndində olmuşdur.**

Açılış mərasimində məcburi köçkünlər, eləcə də kənd sakinləri öz sevinc hisslərini icra başçısı ilə bölüşmüşlər. Yuxarı Əskipara kəndindən olan məcburi köçkün, ağsaqqal Firudin Musayev söz alaraq qeyd etmişdir ki, "İnsan üçün ən savab iş su çəkmək, yol salmaq, körpü tikmək və bir də imkansıza əl tutmaqdır. Rəcəb müəllim siz fəaliyyətə başladığınız ilk gündən bu xeyirxah əməlləri özünüzün gündəlik işinizə çevribsiniz. Bu gün istər Qazax şəhərinin özündə, istər sərhəd kəndlərində, istərsə də rayonun digər yaşayış məntəqələrində neçə-neçə belə xeyirxah izlər qoyubsunuz. Ona görə də bizim kimi bütün rayon sakinləri sizə öz dərin minnətdarlıqlarını bildirirlər".



Çıxış edən məcburi köçkünlərdən Məsmalı Süleymanov, Rahilə Həsənova, Xanlıqlar kənd sakini Xatın Hüseynxanova və başqaları bildirmişlər ki, "Son 1 il yarım ərzində bizim kəndimiz kimi rayonun neçə-neçə kəndlərinə, yaşayış sahələrinə su çəkilmiş, illərdən bəri yığılıb qalmış problemlər öz müsbət həllini tapmışdır. Qazaxbəyli, Ürkməzli, Aslanbəyli, Ağköynək, Qarapapaq, Xanlıqlar, Alpout, Kəmərli, Orta Salahlı, Bala Cəfərli kəndlərinin sakinləri də bizim kimi sevinmişlər".

Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov sakinlərin minnətdarlıq dolu sözlərini dinlədikdən sonra öz sevincini onlara bölüşmüşdür. Bildirmişdir ki, mənim ilk gündən məqsədim rayonda illərdən bəri yığılıb qalmış problemləri aradan qaldırmaqdır. Fəaliyyətə başladığım il yarım müddət ərzində artıq onlardan çoxu öz müsbət həllini tapmışdır. Mən əlimdən gələni edirəm ki, insanlar rahat yaşasınlar.

Yeni bulaq 1,8 km-ə yaxın bir məsafədən kəndə çəkilmişdir. Oradan isə 3,6 km uzunluğunda kəndin daxilini əhatə etmişdir. Kəndin ayrı-ayrı yerlərində 3 ədəd 5 tonluq su çəni qoyulmuşdur. Kəndin ayrı-ayrı küçələrində 13 krant quraşdırılmışdır ki, onlardan da kənd sakinləri istifadə edəcəklər. Beləliklə, 146 ailə bu sudan istifadə edəcəkdir ki, bunun da 53-ü məcburi köçkün ailəsidir. Onu da qeyd edim ki, yaxın gələcəkdə çəkilən bu xətdən daha 50 ailəyə su veriləcəkdir.

**Babalarımızdan qalmış su çəkib, yol salmaq kimi xeyirxah ənənələr bu gün də yaşayır. Elinin, camaatının qədrini bilən insanlar həmişə susuz yerlərə su, yolsuz sahələrə yol çəkərək el-obanın hörmətini qazanmışlar. Bu gün Qazax rayonunda olduğu kimi.**

Son 1 il yarım vaxt ərzində rayonun neçə-neçə kəndlərinə, yaşayış sahələrinə su çəkilmiş, illərdən bəri yığılıb qalmış problemlər öz müsbət həllini tapmışdır. Qazaxbəyli, Ürkməzli, Xanlıqlar, Alpout, Kəmərli, Orta Salahlı, Bala Cəfərli kəndlərinin sakinləri bununla əlaqədar bu gün də rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova öz dərin minnətdarlıqlarını bildirirlər.

Bəli, fəaliyyətə başladığı ilk gündən bu xeyirxah əməlləri özünün gündəlik işinə çevirən Rəcəb Babaşov digər sahələrlə yanaşı bu sahədə də yadda qalası xeyli işlər görmüşdür. Vətəndaşların rayon rəhbərliyinə müraciətindən dərhal sonra əməli işə başlanılmış və həmin yaşayış sahələrinə su çəkilmişdir. Bu əlamətdar gün Ağköynək və Qarapapaq kənd camaatının yaddaşında hələ uzun illər yaşayacaqdır. Məhz həmin gün hər iki kəndin yaşayış massivlərinin bir hissəsinə içməli su çəkilmişdir.

500 və 310 metrə yaxın bir məsafədən çəkilmiş su göz yaşı kimi dumduru axır. Bununla da 34 ailənin su problemi rayon rəhbərliyinin diqqət və qayğısı sayəsində öz müsbət həllini tapmışdır.

Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov bu münasibətlə Ağköynək və Qarapapaq kəndlərində olaraq sakinlərlə görüşmüş, onlara göz aydınlığı vermişdir.

Ağköynək kənd sakinlərindən Yeganə Qasımova, Nahidə Nəbiyeva, Cəmilə Əliyeva, Qarapapaq kənd sakinlərindən isə Tamam Quliyeva, Ülviyyə Piriyeva və başqaları söz alaraq su çəkilişi ilə əlaqədar rayon rəhbərliyinə öz dərin minnətdarlıqlarını bildirmişlər.

Beləliklə, Ağköynək və Qarapapaq kəndlərinin bu hissəsində də əhalinin su həsrətinə son qoyulmuşdur. Ömrün uzun olsun, su çəkən.

**Elçin İSMAYIL**

# DÖVLƏTÇİLİYƏ, QANUNA SADİQ

**"Əsas məqsədimiz-prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır."**

**İlham ƏLİYEV**

**Prokurorluq işçilərinin peşə bayramının təsis edilərək qeyd olunması yalnız ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilmişdir. Ümummilli lider Heydər Əliyev prokurorluğun Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarına əsasən Bakı Dairə Məhkəməsinin nəzdində fəaliyyətə başladığını nəzərə alaraq hər il oktyabr ayının 1-nin prokurorluq işçilərinin peşə bayramı kimi qeyd olunması barədə 17 iyul 1998-ci il tarixli sərəncam imzalamışdır.**

Peşə bayramı gününün təsis edilməsi dövlət orqanları sırasında xüsusi yeri olan prokurorluq orqanlarına böyük qayğının ifadəsi olmaqla yanaşı, prokurorluq işçilərinin fəaliyyətinin layiqincə dəyərləndirilməsinin təzahürü olmuşdur. Ulu öndər Heydər Əliyevin dövlətçilik iradəsi ilə gerçəkləşən bu əlamətdar gün Azərbaycan Prokurorluğunun cəmiyyətdə və dövlət təsisatları sırasında olan yerini müəyyənləşdirməklə prokurorluğa dövlət səviyyəsində göstərilən qayğının və hərtərəfli dəstəyin təzahürü kimi hər bir əməkdaşda böyük qürur hissi doğurur.

Çox sevindirici haldır ki, Heydər Əliyev ideyalarının, onun müdrik dövlətçilik siyasətinin layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də prokurorluq orqanlarına hərtərəfli qayğı və diqqət göstərilir, mühüm dövlət təsisatlarından biri kimi onun normal fəaliyyəti üçün zəruri təminatlar yaradılması istiqamətində məqsədyönlü işlər görülür.

Müstəqillik illəri ərzində ölkəmizin ictimai-siyasi həyatında çox mühüm hadisələr baş vermiş, xalqımızın ümummilli lideri Heydər Əliyev siyasi dühasının məhsulu olan və öz inkişaf tarixinin yeni yüksəliş mərhələsini yaşayan müstəqil Azərbaycan Respublikasının daha da qüdrətlənməsi, xalqımızın həyat səviyyəsinin yüksəlməsi, demokratik dəyərlərin hərtərəfli bərqərar olması ilə nəticələnən uğurlu nailiyyətlər əldə edilmişdir. Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən məqsədyönlü siyasət tədbirlərinin nəticəsidir ki, bütövlükdə Azərbaycanın və ayrı-ayrılıqda hər bir regionun hərtərəfli sosial-iqtisadi inkişafına nail olunmuş, sivil dövlət və vətəndaş cəmiyyət formalaşdırılması yolunda irəliyə doğru inamlı addımlar atılmış, yaradılmış şəffaf mühit nəticəsində Azərbaycanın demokratiyaya sadiqliyi bütün dünyaya sübut edilmiş, dünya dövlətləri birliyinə sürətlə inteqrasiya olunan ölkəmiz regionun aparıcı dövlətinə çevrilmişdir.

Doğma Azərbaycanımızı gündən-günə qüdrətləndirən və gözəlləşdirən, ölkəmizin dinamik və hərtərəfli sosial-iqtisadi inkişafına istiqamətləndirilmiş yeni məzmunlu dövlətçilik siyasətini qətiyyətlə dəstəkləyən Qazax prokurorluğu digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə bu quruculuq işlərinin əsas təminatları olan ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, dövlət müstəqilliyimizin, demokratik hüquq və azadlıqların etibarlı müdafiəsi üçün zəruri tədbirlərin görülməsi sahəsində öz əməyini əsirgəmir.

Ulu öndəri Heydər Əliyevin siyasi iradəsinə uyğun olaraq və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hərtərəfli dəstəyi ilə həyata keçirilən mütərəqqi islahatların nəticəsidir ki, bu gün Azərbaycan Prokurorluğu normal fəaliyyəti üçün mütərəqqi normativ hüquqi bazası, demokratik məzmunlu fəaliyyət prinsipləri və iş metodları olan sivil dövlət təsisatına çevrilmiş, hər bir əməkdaşın məsuliyyət hissi artırılmış, neqativ təzahürlərin və çatışmazlıqların aradan qaldırmağa qadir olan nəzarət mexanizmi yaradılmışdır.

Azərbaycanın nüfuzu, önəmi, təsir imkanları gündən-günə artır. Ölkəmizin gələcək inkişafının strateji istiqamətlərini müəyyənləşdirmək, irimiqyaslı sosial proqramların həyata keçirilməsinə nail olmaqla ölkənin yüksəkgəlirli ölkələr sırasına daxil olması və vətəndaşlara ən yüksək beynəlxalq standartlara uyğun layiqli həyat səviyyəsini təmin etmək üçün dövlət tərəfindən mühüm konseptual əhəmiyyətə malik proqram xarakterli layihələr həyata keçirilir. Bu qəbildən olan dövlət sənədləri içərisində Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmiş, başlıca strateji məqsədi mövcud imkan və resursları nəzərə almaqla Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olunması olan "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası digər dövlət təsisatları kimi prokurorluq orqanlarında da inkişaf siyasətinin əsas strateji hədəflərini özündə ehtiva etməklə prokurorluğun fəaliyyətinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsində mühüm əhəmiyyətə malikdir.

Qeyd etməliyik ki, respublikamızda inkişaf etmiş ölkələrə uyğun keyfiyyətləri və milli xüsusiyyətləri özündə birləşdirən hüquq sistemi yaradılmaqla dövlət orqanlarının fəaliyyəti yüksək standartlar səviyyəsində qurulmuş, o cümlədən prokurorluq tam yenidən təşkil olunmaqla müasir dövrün tələblərinə cavab verən yüksək peşəkar bir orqan kimi formalaşdırılmışdır. Hazırda Azərbaycan Prokurorluğu inkişaf etmiş dünya dövlətlərinin bu qəbildən olan qurumlarına məxsus müsbət keyfiyyətləri özündə birləşdirən, prokurorluğun müasir dövrdə fəaliyyət istiqamətlərinə və roluna dair Avropa Şurasının, Beynəlxalq Prokurorlar Assosiasiyasının və digər nüfuzlu beynəlxalq təşkilatların müəyyən etdiyi standartlara cavab verən, dövlətçiliyimizin maraqlarına, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının ən ümdə dəyər kimi qorunmasına xidmət edən mühüm dövlət orqanıdır.

Ölkənin sürətli sosial-iqtisadi inkişafı ictimai münasibətlərin müvafiq dəyişikliyini şərtləndirməklə yanaşı, prokurorluq orqanlarının fəaliyyətində lazımi təkmilləşdirmə prosesinin müntəzəm olaraq aparılmasını zəruri edir ki, nəticədə bu mühüm dövlət təsisatının qarşısında dayanan vəzifələrin həcmi və məzmununa dair tələblər də adekvat dəyişikliyə məruz qalır. Təsadüfi deyil ki, prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi və müasirləşdirilməsi prosesi mütəmadi olaraq həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş, prokurorluğun daha da təkmilləşərək müasirləşdirilməsi dövrünün əsasını qoymuş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi nəticəsində hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və istintaq aparılmasında digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təşkili, insan hüquq və azadlıqlarının qorunması, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə edilməsi, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, prokurorluğun fəaliyyətinin bütün istiqamətləri üzrə peşəkarlığın yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması sahələrində ciddi uğurlar əldə edilmişdir.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında nəzərdə tutulmuş məqsədlərə nail olmaq üçün qanunvericiliyin təkmilləşdirilməsi prosesində prokurorluq orqanları yaxından iştirak etməklə, fəaliyyətimizdə konsepsiya çərçivəsində müəyyən edilmiş hədəflərə çatmaq baxımından institusional potensialın gücləndirilməsini özündə ehtiva etdiyi üç əsas istiqamət olan: dövlət sektorunda insan resurslarının inkişafı, "elektron hökumət" fəaliyyətinin genişləndirilməsi və institusional islahatların davam etdirilməsi üzrə məsələlərə xüsusi diqqət yetirilmişdir. Konsepsiyanın müəyyən etdiyi inkişaf siyasətinin əsas strateji hədəflərinə müvafiq olaraq prokurorluq orqanlarının fəaliyyətinin müasir tələblərə uyğun qurulması, prokurorluğun fəaliyyətində şəffaflıq və açıqlıq prinsiplərinin rəhbər tutulması, korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi, informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, müvafiq dövlət orqanları ilə vahid infrastruktur əsasında təhlükəsiz informasiya mübadiləsinin aparılması, informasiya təhlükəsizliyinin yüksəldilməsi, əhalinin elektron vasitələrdən istifadə etməklə prokurorluğa müraciət etmək imkanlarının genişləndirilməsi sahəsində tədbirlərin həyata keçirilməsi təmin edilmişdir.

Əvvəlcədən elan olunmaqla tərəfimizdən vətəndaşların Baş prokuror tərəfindən qəbulunun keçirilməsi mütəmadi xarakter daşıyaraq müsbət nəticələr vermişdir.

Bu əlamətdar gündə əminliklə qeyd etmək istəyirəm ki, rayon prokurorluğunun işçiləri bundan sonra da Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə ölkədə həyata keçirilən hüquqi dövlətin əsaslarının möhkəmləndirilməsinə və inkişafına yönəlmiş tədbirlərdə, məhkəmə-hüquq islahatlarının səmərəliliyinin artırılmasında fəal iştirak edərək qanuna və xalqına sədaqətlə xidmət edəcək, prokurorluğun fəaliyyətinin müasir dövrün yüksək tələblərinə uyğun olaraq həyata keçirilməsi istiqamətində səylərini daha da artıraraq, qanun pozuntularına və cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsində, insan hüquq və azadlıqlarının müdafiəsində, ictimai-siyasi sabitliyin və dövlətçiliyimizin qorunmasında uğurlar əldə etmək üçün əzmlə çalışacaqlar.

**Əlirza BABAYEV,**
**Qazax rayon prokuroru,**
**baş ədliyyə müşaviri**

# Harda problem varsa mən ordayam

## Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun Hüseynbəyli kəndinin sakinləri ilə görüşündə bu fikir səslənmişdir

**Hüseynbəyli kəndinin bir qrup sakini Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun qəbulunda olan zaman yaşadıqları ərazidə içməli su sarıdan problem yaşadıqlarını bildirmişlər. Qeyd etmişlər ki, son günlər təqribən 20 ailə üçün su qıtlığı yaranmışdır. Sakinlər rayon rəhbərliyindən bu çatışmazlığı həll etməyi xahiş etmişlər. Rəcəb Babaşov sakinlərə kəndə gəlib problemlə yerində tanış olacağını bildirmişdir.**



İş qrafikinin gərgin olmasına və iş vaxtının başa çatmasına baxmayaraq R.Babaşov axşam Hüseynbəyli kəndinə gəlmişdir. Məsələ qaldıran kənd sakinləri ilə yaşadıqları ərazidə görüşərək birbir onları dinləmişdir. İnsanların qaldırdıqları məsələni yerində araşdırmış, mövcud vəziyyətlə yerindəcə tanış olmuşdur.

Kənd sakinlərindən Əsəd Mahmudov, Novruz Alıcanov, Mahirə Abbasova və başqaları söz alaraq kəndə asfalt yolun çəkilməsinə görə ölkə başçısına, rayon rəhbərliyinə bütün kənd sakinləri adından öz dərin minnətdarlıqlarını bildirmişlər. Eyni zamanda yaşadıqları ərazidə yaranmış su qıtlığından da söz açmışlar. Sakinlər enerjidə gərginliyin az olmasını, telefon xətlərində bir sıra çatışmazlıqların olduğunu da qeyd etmişlər.

Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov sakinləri dinlədikdən sonra aidiyyatı idarələrin rəhbərlərinə elə oradaca göstəriş verərək mövcud problemin təcili olaraq aradan qaldırılmasını tapşırmışdır. Qeyd etmişdir ki, harda problem varsa, mən ordayam. Ona görə də çatışmazlıqları deməkdən çəkinməyin.

Sonda sakinlər axşam olmasına baxmayaraq vaxt tapıb kəndə gəldiyinə, onların qaldırdıqları məsələyə operativ reaksiya verdiyinə, problemlə yerində tanış olduğuna və onun həlli istiqamətində konkret göstəriş verdiyinə görə rayon rəhbərliyinə öz dərin minnətdarlıqlarını bildirmişlər.

# "Siz həmişə xalqın arasında olursunuz"

## Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun Qazaxbəyli kəndində məcburi köçkünlər üçün salınmış qəsəbədə sakinlərlə keçirdiyi görüşdə bu fikir səslənmişdir

**Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov iş saatının sonu olmasına baxmayaraq Qazaxbəyli kəndində məcburi köçkünlər üçün salınmış qəsəbədə olmuş, burada məskunlaşmış məcburi köçkünlərlə görüşmüşdür. Görüşə toplaşanlar icra başçısını böyük səmimiyyətlə, ən yaxın və ən doğma insan kimi qarşılamışlar.**

Görüşdə RİHB aparatının məsul işçiləri, rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilat rəhbərləri, KİV nümayəndələri iştirak etmişdir.

R.Babaşov çıxış edərək bildirmişdir ki, xalqın arasında olmaq, əhalini narahat edən problemləri onların dilindən eşitmək mənim iş fəaliyyətimin əsas prinsiplərindən biridir. Məqsədim problemləri yerində öyrənmək, onların həlli istiqamətində konkret işlər görməkdir. Düzdür, vaxtilə rayonda problemlər olmuşdur və onlar zaman-zaman aradan qaldırılmışdır. Bu gün hamınıza məlumdur ki, "Göy bina" deyilən yaşayış massivində və məcburi köçkünlərin yerləşdiyi digər yerlərdə olan problemlər artıq öz həllini tapmışdır.



Növbəti dəfə sizinlə görüşməyimin məqsədi sizi narahat edən məsələləri elə sizin öz dilinizdən eşitmək və onları aradan qaldırmaqdır.

Bağanıs Ayrım kənd ibtidai məktəbin direktoru Əsgər Hüseynov, Barxudarlı kənd sakini Hüseyn Yunisov, Yuxarı Əskipara kənd sakinlərindən Nüsrəddin Hacıyev, Mehriban Qasımaova, Hacıkərim Hüseynov, Gülər Əhmədova, Fazilə Mahmudova, Aşağı Əskipara kənd sakini Furont Əsgərov, Bağanıs Ayrım kənd sakinlərindən Şamil Adıgözəlov, Cavanşir Əliyev, Türkan Adıgözəlova və başqaları söz alaraq məcburi köçkünlərə göstərilən diqqət və qayğıya görə Ölkə Başçısı İlham Əliyevə, rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova bütün qəsəbə sakinləri adından öz dərin minnətdarlıqlarını bildirmişlər.

Qeyd etmişlər ki, bu gün rayonda sağlam mühit, əmək intizamı, şəffaflıq yaranmışdır. Hamı öz sözünü deyə bilir. Bu da ondan irəli gəlir ki, siz İcra Başçısı kimi həmişə xalqın arasında olursunuz. Sizin bizim qəsəbəyə gəlişinizin artıq sayı-hesabı bilinmir. Çıxış edənlər minnətdarlıqla yanaşı öz arzu və istəklərini də bildirmişlər.

R.Babaşov sakinləri diqqətlə dinlədikdən sonra qaldırılan məsələlərin həlli istiqamətində lazımi tapşırıq və tövsiyələrini vermişdir.

# Görülən işlər sakinlərdə fərəh hissi oyadır



**Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov mütəmadi olaraq şəhər və kəndlərdə olur, həm görülən işlərlə yerindəcə tanış olur, həm də sakinlərlə görüşərək problem və çatışmazlıqları öyrənir.**

Qeyri-iş günü olmasına baxmayaraq rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Daş Salahlı kəndində olaraq orada aparılan tikinti-abadlıq işləri ilə maraqlanmış, öz tapşırıq və tövsiyələrini vermişdir.

Sonra İcra Başçısı şəhərdə "Çinarın dibi" deyilən ərazidəki "Gilliyin binası" adlanan yaşayış massivinə gələrək burada yaşayan sakinlərlə görüşmüşdür. Sakinlər Rəcəb Babaşovu çox böyük mehribanlıqla və səmimiyyətlə qarşılamışlar. Elə görüşdə sözə də sakinlər başlamışlar. Nailə Əliyeva, Safura İsgəndərova, Mələk Əliyeva, Pərnisə Məmmədova və başqaları çıxış edərək yaşadıqları binanın özündə, eləcə də həyətində görülən işlərə görə rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova bütün sakinlər adından öz dərin minnətdarlıqlarını bildirmişlər. Qeyd etmişlər ki, yaşadıqları Ə.Şıxlinski küçəsi 4 və 5 ünvanlarındakı beşmərtəbəli binalar baxımsızlıq ucbatından pis hala düşmüşdü. Binanın həyəti çala-çuxur idi, gecələr bura zülmətə qərq olurdu. Xeyir-şər evlərinin demək olar ki, quru adı var idi. Zirzəmilərə isə girmək olmurdu.

Çatışmazlıqlar haqqında danışdıqdan sonra sakinlər görülən işlərdən söz açmışlar. "Çox sağ olun ki, Siz bura gəldiniz və elə o gündən də burada abadlıq-quruculuq işlərinə başlanıldı. Binaların həyətlərinə çınqıl tökülərək hamarlandı. Xeyir-şər evləri demək olar ki, yenidən tikilib istifadəyə verildi. Gözümüz necə deyərlər, indi işıq görür. Binaların həyətləri işıqlandırıldıqdan sonra indi axşamlar evlərimizə rahat gedib-gələ bilirik. 4 saylı binanın bloklarının giriş hissəsinin dam örtüyü də yenidən düzəlib. Hər iki binanın zirzəmiləri təmizlənərək dərmanlanıb". Sakinlər yekdilliklə bildirdilər ki, Rəcəb müəllimin tapşırığına əsasən görülən bu abadlıq işlərindən sonra demək olar ki, biz ağ günə çıxmışıq. İndi çox asudə və rahat yaşayırıq. Çünki binalarımızda heç bir problem yoxdur.

Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov sakinləri dinlədikdən sonra bildirdi ki, ölkəmiz gündən-günə daha da abadlaşır, insanların yaşayış səviyyəsi yüksəlir. Ona görə də respublikamızın hər yerində olduğu kimi Qazax rayonu da gözəl və yaraşıqlı olmalıdır. Siz bundan da yaxşısına layiqsiniz.

Görüşün sonunda Rəcəb Babaşov uşaqlarla xatirə şəkli çəkdirdi.

# Qazaxda çoxmənzilli binaları tanımaq olmur

***Sözün əsl mənasında bu, belədir. Bir neçə ay bundan öncə olduqca yararsız hala düşmüş, dam örtüyündən daman, dəhliz və blokları miskin bir görkəm bağışlayan, balkonları və fasad hissəsi pis vəziyyətdə olan çoxmənzilli binaları bu gün sözün yaxşı mənasında tanımaq olmur. Fasad hissəslərinə suvaq vurulmuş və rənglənmiş, dəhliz və blokları əsaslı şəkildə təmir olunmuş, blokların giriş hissələrinə qapılar qoyulmuş çoxmənzilli binalar şəhərimizə xüsusi gözəllik verərək göz oxşayır. Bir neçə ay ərzində binaların görkəmlərinin belə gözəlləşməsi bu binalarda yaşayan sakinlərin, eləcə də bu gün həmin binalara baxmağa gələn ictimaiyyət nümayəndələrinin də ürəyincə olmuşdur.***



Qazax şəhərində artıq bir neçə aydır ki, çoxmənzilli binaların təmirinə başlanılmışdır. Respublika Prezidenti İlham Əliyevin 20 oktyabr 2016-cı il tarixli sərəncamına uyğun olaraq Qazax şəhərindəki 24 çoxmənzilli binalarda təmir işləri həyata keçirilmişdir. Əlavə olaraq daha 15 binada təmir-bərpa işləri həyata keçirilərək yüksək səviyyədə başa çatdırılmışdır. Bir sözlə, 39 çoxmənzilli bina yüksək səviyyədə təmir olunaraq sakinlərin istifadəsinə verilmişdir.

Bundan başqa, dövlət proqramına uyğun olaraq təmiri nəzərdə tutulmuş 34 çoxmənzilli binada da təmir işləri tam başa çatdırılmışdır. Əlavə olaraq 7 binanın təmir olunması nəzərdə tutulmuşdur ki, onlardan da 5-də işlər davam etdirilir. 2 binada isə təmir işlərinə yaxın günlərdə başlanılacaqdır. Onu da qeyd edim ki, binaların dam örtüyündə, fasad hissəsində, dəhliz və bloklarda təmir işləri aparılmışdır. Eyni zamanda, binaların giriş hissəsinə yeni dəmir qapılar qoyulmuşdur. Təmir edilən binaların həyətlərinə işıq çəkilmişdir. Əlavə olaraq çınqıl döşənərək hamarlanmışdır.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov təmir işləri ilə məşğul olan aidiyyatı təşkilatların rəhbərləri, ictimaiyyət və KİV nümayəndələri ilə birlikdə təmir işləri ilə tanış olmaq üçün şəhərdəki bütün binalara baş çəkmişdir. Rəcəb Babaşov təmir işləri ilə yaxından tanış olduqdan sonra inşaatçıların



gördüyü işləri yüksək qiymətləndirmişdir. Onlara öz tapşırıq və tövsiyələrini verərək təmir işlərinin tam başa çatdırılması üçün icra hakimiyyəti tərəfindən hər cür dəstək göstəriləcəyini bildirmişdir.

Rayon rəhbərliyi sakinlərlə səmimi görüşərək onların arzu və təkliflərini də dinləmişlər. Sakinlərdən Aygün Omarova, Şahsənəm Vəliyeva, Aydın Şəfiyev, Fəxriyyə Qasımova, Yelena İsayeva, Elmirə Abbasova, Fatma Tomayeva, Sabir Aslanov, Qoca Qəhrəmanov, İradə Qafarova, Fatma Əhmədova, Səlminaz Qəribova, Bəsti İbrahimova, Sevinc İsmayılova, Vidadi Müftizadə, Göyçək Cəfərova, Savad Bayramova və onlarla digər sakinlər rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova ailələri adından öz dərin minnətdarlıqlarını bildirmişlər. Qeyd etmişlər ki, N.Nərimanov yaşayış massivindəki binalar 1961-ci ildə istifadəyə verilmişdir. Çox əfsuslar olsun ki, bu binalarda 56 ildən çox bir vaxt keçməsinə baxmayaraq indiyə qədər heç bir təmir işləri aparılmamışdır. Ona görə də binalar olduqca yararsız bir hala düşmüşdü. Şükürlər olsun ki, bizim yaşayış binalarına da əl gəzdirildi. Allah bu gözəl günü bizə qismət elədi.

Şəhidlər Xiyabanı 31 ünvanda yaşayan sakinlərdən Raziyyə Ömərova, Çiçək Savalani, Rüxsarə Əhmədova, Südabə Murğuzova və başqaları Rəcəb Babaşova minnətdarlıq edərək bildirmişlər ki, bu bina Qazaxın ilk 2 mərtəbəli binasıdı. 1960-cı ildən tikilməsinə baxmayaraq burada indiyə qədər təmir işləri aparılmamışdır. Çox sağ olun ki, bizim yaşadığımız binaya yeni bir həyat verdiniz.

Təmir işləri aparılmış Azadlıq küçəsi 39, 9, 98 nömrəli binaların sakinləri də təmir-bərpa işlərindən razılıqlarını bildirmişlər. Sakinlərdən Şayəstə Rzayeva demişdir ki, o gün bizə qonaq gəlmişdi. Qonaq həyətə daxil olanda öz təəccübünü gizlədə bilmədi və evimizi tanımadı.

Rayon rəhbərliyinə belə minnətdarlıq ifadələrini onlarla rayon sakinləri çatdıraraq "Bu gün Qazaxda işləmək də, yaşamaq da gözəldir" demişlər. Bəli, doğrudan da Qazax günü-gündən gözəlləşərək respublikamızın ən inkişaf etmiş, ən abad və ən gözəl şəhərlərindən birinə çevrilmişdir.

Qazaxda çoxmənzilli binalarda təmir-bərpa işləri sürətlə davam etdirilir.

**Elçin İSMAYIL**



# Qurban bayramı insanları mərhəmətə, həmrəyliyə və qardaşlığa dəvət edən bir bayramdır

**İslam dininin iki böyük bayramı var - Ramazan və Qurban bayramları. Qurban bayramı Həzrəti İbrahim peyğəmbərin yuxuda aldığı ilahi vəhyə əsasən öz oğlu İsmayılı Mina vadisinə gətirib Allah yolunda qurban kəsmək cəhdi ilə bağlıdır. Qonaqpərvərlik, başqalarının halına yanma, rəhmlilik, xeyriyyəçilik, kimsəsizlərə baş çəkmək, dərdə şərik çıxmaq, xalqımızın sahib olduğu mənəvi zənginliklərdəndir.**

Ümummilli lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə qayıtdıqdan sonra respublikamızın ərazi hüdudlarında yaşayan bütün xalqların mədəniyyətinə, adət-ənənəsinə, dini baxışlarına tolerant münasibətin vacibliyini vurğulamışdır.

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyev də son 14 ildə tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin dirçəldilməsinə, xüsusən də dini ziyarətgahların əsaslı təmirinə və yenidən qurulmasına xüsusi diqqət ayırmışdır. Dünya müsəlmanlarının mənəvi birlik rəmzi olan Qurban bayramının Azərbaycanda hər il yüksək səviyyədə qeyd olunması dövlətimizin milli-mənəvi dəyərlərimizə göstərdiyi diqqətin parlaq təzahürüdür.

Ölkə Prezidenti İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrikində bu müqəddəs bayramı belə xarakterizə etmişdir: “Gslamgn bir din kimi tamamlanmasgng və mənəviəxlaqi qurtuluö yolu olaraq bəöəriyyətə göndərilməsini üzğndə təcəssğm etdirən mğbarək Qurban bayramg insanlarg mərhəmətə, həmrəyliyə və qardaölgra dəvət edən bir bayramdgr. Bu əziz gğndə mğsəlmanlar Allah yolunda hər cğr fədakarlgra hazgr olduqlargng nğmayiö etdirir, uca Tanrgya yaxgnlgrgn fərəhini yaöamaq fğrsəti əldə edirlər”.

Azərbaycan xalqı həmişə milli-mənəvi dəyərlərə və ənənələrə sədaqət və qayğı ilə yanaşmış, dini mərasimləri və qurban bayramını böyük ruh yüksəkliyi ilə qeyd etmişdir. Bu münasibətlə, ölkəmizin hər yerində olduğu kimi, rayonumuzda da müqəddəs Qurban bayramına xüsusi hazırlıq işləri aparılmış və böyük ruh yüksəkliyi ilə qeyd olunmuşdur. Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə qurbanlar kəsilmiş, rayonun şəhər və kəndlərində yaşayan şəhid ailələrinə, Qarabağ Müharibəsi Əlillərinə və Veteranlarına, bütün aztəminatlı ailələrə evlərində qurban payları verilmişdir. Rayonda xalqımızın və dövlətimizin əmin-amanlığı və firavanlığı üçün Allaha dualar səslənmiş, Vətən uğrunda həyatından keçən şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunmuşdur.

# Xalqa xidmət nümunəsi



**Mən 1974-cü ildən Qazaxda işləyirəm. Bu illər ərzində çox sayda icra başçısı görmüşəm. Lakin Rəcəb Babaşov səviyyədə, alicənab, səmimi, yüksək insani keyfiyyətə malik icra başçısı ilə qarşılaşmamışam. Ulu öndər Heydər Əliyevin söylədiyi “Hər şey xalq üçün” sözlərinə bu gün Qazax rayonunda birmənalı şəkildə əməl olunur. Rəcəb Babaşov Qazaxa gəlişi ilə biz qazaxlılara inam, iman gətirdi. Onun rayon sakinlərinə olan münasibəti fəaliyyətə başladığı ilk günlərdən hiss olunmağa başladı və ən əsası isə odur ki, bu münasibət dəyişmədi, necə vardısa elə də qaldı. Bu da əhalidə böyük ruh yüksəkliyi yaratdı.**

Rəcəb Babaşovu tanımaq, ona qiymət vermək üçün onun fəaliyyətə hardan başladığına diqqət yetirmək kifayətdir. Hörmətli İcra Başçısı rayonda ilk işə Şəhidlər Xiyabanlarını, şəhid qəbiristanlıqlarını təmir etdirib onların adlarına layiq hala salmaqla başladı. Rayondakı bütün şəhid qəbirləri, xiyabanları əsaslı şəkildə yenidən quruldu. İcra Başçısı bu xeyirxah işləri ilə bütün şəhid ailələrinin ən yaxın üzvü oldu, onların qayğılarını çəkdi. Ona görə də bu gün rayonumuzdakı bütün şəhid ailələri İcra Başçısına öz doğmaları kimi müraciət edirlər.

Rəcəb Babaşov Qazaxda uşaqdan böyüyə kimi hamını tanıyır. Ona müraciət edən insanın özünü təqdim etməyə ehtiyacı qalmır. Qaldırılan məsələlərə, problemlərə həssaslıqla yanaşaraq onları həll edir, bu yolda əlindən gələni əsirgəmir. Hətta, o, öz otağındakı televizoru qəbulların birində ona müraicət edən vətəndaşa hədiyyə edib.

Bu gün Qazaxa daxil olan hər bir qonağı rayonumuzun girəcəyində qoyulmuş Dilboz atın əzəmətli heykəli qarşılayır. Ordan keçəndən sonra Dədə Qorqud və dahi Səməd Vurğunun adına salınmış parklar göz oxşayır. Buradan da biganə keçmək olmur.

Mən dəfələrlə rayonumuza gələn qonaqların, xarici vətəndaşların, gənclərin, gənc ailələrin rayonumuzun ünvanını bildirən Obeleskin, Azərbaycanın ilk hərbi təyyarəçisi Fərrux ağa Qayıbovun xatirəsinə ucaldılmış Təyyarə Abidə Kompleksinin qarşısında şəkil çəkdirdiklərinin şahidi olmuşam. Bu məni çox fərəhləndirib.

Gəlin açıq etiraf edək ki, əvvəllər Qazaxda yaşıllığa bu qədər diqqət verilmirdi. Ağac əkilsə də bir neçə aydan sonra baxımsızlıqdan quruyurdu. Rəcəb Babaşovun sayəsində Qazax yaşıl dona bürünüb. Hər yanda al-əlvan çiçəklər, güllər bir-birini çağırır. Rayonumuz sanki gülüstana dönübdür.

Rəcəb Babaşov xalqın adamıdır. O, həmişə camaatın arasında olur, onların sevinclərinə, dərdlərinə şərik çıxır. Ona görə də bu gün şəhərdə, kəndlərdə, Qazaxın hər yerində Rəcəb müəllimi çox səmimi, gülərüzlə qarşılayır, onu özlərinin ən yaxın adamı bilirlər. Çox sağ olsun, böyük saz, söz ustası Dədə Ədalətə yüksək səviyyədə yas mərasimini təşkil etdirməsi bu diqqət və qayğını bir daha sübut etdi.

Hamıya məlumdur ki, Qazax rayonunda bütün sahələrə diqqət və qayğı göstərilir. Təhsil, səhiyyə, mədəniyyət, idman, mətbuat, hamısı Rəcəb Babaşovun diqqət mərkəzindədir. Heç bir sahə diqqətdən kənarda qalmır. Bu gün rayonda böyük xəstəxana binası tikilir. Orada gedən tikintiyə cənab başçı şəxsən özü hər gün nəzarət edir. Rayon mərkəzində, kəndlərdə körpələrimiz üçün bağçalar, məktəblər tikilir və təmir olunur.

Rəcəb Babaşov mətbuata, yaradıcı insanlara xüsusi diqqət verir. Uzun illər rayonda fəaliyyət göstərən 85 yaşlı “Göyəzən” qəzeti köhnə üsulla, ağ-qara rəngdə çap olunurdu. Bu gün qəzet Rəcəb Babaşovun sayəsində rəngli şəkildə, yeni tərtibatda oxucuların qapısını döyür. Mən çox qəzet oxuyanam. Respublikada “Göyəzən”ə bərabər qəzetlə rastlaşmamışam. “Göyəzən” qəzeti ilə yanaşı, Rəcəb Babaşovun sayəsində GOYEZEN.AZ saytı fəaliyyət göstərir. Mən eşitdim ki, bu yaxınlarda cənab başçı mətbuat işçilərini bir yerə toplayaraq saytın 1 yaşını qeyd edib.

Mən bir məsələni də açıq etiraf edəcəm. Qazaxda istər şəhərdə, istərsə də kəndlərdə, haraya gedirsən Rəcəb müəllim ordadır. Bu da onun işgüzarlığından, məsuliyyətindən və işə can yandırmağından irəli gəlir. Ona görə də mübaliğəsiz olaraq deyərdim ki, bu gün Rəcəb Babaşov Qazaxda piyada gəzdiyi yolları əvvəlki icra başçıları maşınla da gəzməyib. O, rayonda hər küçəni, məhləni, kəndlərdə hər cığırı, izi tanıyır. Bu ondan irəli gəlir ki, o, həmişə, hər gün qazaxlıların yanındadır.

Yol salmaq, su çəkmək dədə-babadan savab iş sayılır. Rəcəb Babaşov gəldiyi gündən su çəkdirir, yol salır, insanların yaşayış şəraitini yaxşılaşdırmağa çalışır. Canalı, Kosalar, Hüseynbəyli, Çaylı yolu bu gün göz oxşayır. Neçə-neçə kəndlərdə artezian quyuları qazılıb, qeydiyyata alınıb, insanlar içməli və suvarma suyu ilə təmin olunublar. Odur ki, hamı deyir: “Su çəkən, yol salan ömrün uzun olsun”.

Rəcəb Babaşovun bilmirəm hansı işindən danışım. Sadaladıqca bitmir, danışdıqca tükənmir. Mən uzun illər Qazaxda yaşamağıma və işləməyimə baxmayaraq özümə qarşı belə diqqət və qayğı görməmişdim. Mənə heç vaxt yüksək kürsüdə yer verilməmişdi. Mən bu hörməti Rəcəb Babaşovdan gördüm. Mənim idman dərsi keçdiyim Məhəmmədəli Qazaxlı adına güləş zalı uzun illər idi ki, yararsız halda idi. Demək olar ki, dərs keçmək mümkün deyildi. İcra Hakimiyyətinin iki addımlığında yerləşən bu zal sanki yaddan çıxmışdı. Halbuki, bu zal neçə-neçə güclü idmançı yetişdirərək Qazaxın, respublikamızın adını daim göylərə ucaldıbdır. Rəcəb Babaşovun sayəsində idman zalı bu gün adına layiq hala salınıb. Zal içəridən və çöldən gözəl görkəm alıb. Baxdıqca göz oxşayır, insanın ürəyi dağa dönür. Rəcəb Babaşovun diqqət və qayğısı məni və yetirmələrimi sevindirir, yeni qələbələr qazanmağa ruhlandırır.

Mən həqiqəti deyəcəm. Qazax rayonunda işləmək həm çətin, həm də şərəflidir. Rəcəb Babaşov bu çətin və şərəfli işin öhdəsindən layiqincə gəlir. Bu insan sanki Qazax rayonu üçün doğulub. O, əxlaqı təmiz, vicdanı saf, tamahı olmayan insandır. Bu gün Qazaxda dövlət məmurları, icra işçilərinin, idarə müdirlərinin də siması yaxşı mənada dəyişib. Çünki Rəcəb Babaşov özü belə işləyir və belə də tələb edir. Bu gün rayonda Rəcəb Babaşovun sayəsində dedi-qodu, söz-söhbət birmənalı şəkildə yığışdırılıb. Çünki rayonda hər bir sahə, hər şey şəffafdır. Ona görə də rayon sakinləri, bütün qazaxlılar Rəcəb Babaşovdan artıq dərəcədə razıdırlar.

Sözümün sonunda bir ağsaqqal kimi rayon sakinləri, bütün qazaxlılar, idmançılar adından cənab Prezidentə öz dərin minnətdarlığımı bildirirəm.

**Ramiz TAĞIYEV,**
**SSRİ idman ustası, SSRİ-nin Bədən Tərbiyəsi və İdman Əlaçısı,**
**Respublika dərəcəli hakim,**
**Azərbaycanın Bədən Tərbiyəsi və İdman Əlaçısı,**
**Azərbaycanın ali kateqoriyalı məşqçi-müəllimi,**
**Azərbaycanın Fəxri İdman İşçisi,**
**Azərbaycanın Əməkdar Məşqçisi,**
**Azərbaycanın Fəxri Bədən Tərbiyəsi və İdman Xadimi**

# Qurban bayramında uzunömürlü insanlar da yad edilmişdir



**Respublikamızın hər yerində olduğu kimi, Qazax rayonunda da insanları birliyə, həmrəyliyə çağıran Qurban bayramı böyük təntənə ilə qeyd olunmuşdur. Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə qurbanlar kəsilmiş, rayonun şəhər və kəndlərində yaşayan şəhid ailələrinə, Qarabağ Müharibəsi Əlillərinə və Veteranlarına, bütün aztəminatlı ailələrə evlərində qurban payları verilmişdir.**

Qazaxda yaşayan uzunömürlü insanların sayı da kifayət qədərdir. Rayon rəhbərliyinin tapşırığına əsasən ömrünün ahıl çağlarını yaşayan həmin uzunömürlü insanlar da yad edilmişdir.

Bayram münasibətilə rayon rəhbərliyinin tapşırığına əsasən rayon İcra Hakimiyyəti Başçısının müavini Gulaya Həsənovanın rəhbərliyi ilə aparatın məsul işçiləri, KİV nümayəndələri rayonun Kəmərli, Yuxarı Salahlı, Aşağı Salahı, Daş Salahlı, Ürkməzli, Kommuna, Çaylı, Hüseynbəyli və Cəfərli kəndlərində həmin yaşlı insanların evlərində qonaq olmuş, onlara baş çəkmiş, bayramlarını təbrik etmişlər.

Gulaya Həsənova nurani insanlara rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun səmimi salamlarını və bayram təbriklərini çatdırmışdır. İcra Başçısının rayonda ömrünün ahıl çağlarını yaşayan insanlara olan səmimi münasibətindən, göstərdiyi qayğıdan danışmış, onların daim diqqət mərkəzində saxlanıldığını bildirmişdir. Qeyd etmişdir ki, rayon rəhbərliyinin tapşırığına əsasən sizlərə baş çəkməyə gəlmişik.

Qonaqları səmimi qarşılayan 110 yaşlı Səyalı Nəbiyeva, 107 yaşlı sakinlərdən Sədiqə Süleymanova, Səkinə Nuruyeva, 105 yaşlı sakinlərdən Səkinə Mirzəyeva, Lütviyə Vələdova, 101 yaşlı sakinlərdən Lilpar Həsənova, Qaratel Bənnayeva, Gilas Tanrıverdiyeva, 100 yaşlı Məhi Vəliyev və ailə üzvləri onları salamlamış, rayon rəhbərliyindən razı qaldıqlarını bildirmişlər. Qeyd etmişər ki, ömrünün ahıl çağlarını yaşayan bizim kimi insanları axtarmağınız, bizimlə yaxından maraqlanmağınız, diqqət və qayğı göstərməyiniz bizi çox sevindirir. Bizim evimizdə olduğunuza və bizə diqqət ayırıb bayramımızı təbrikə gəldiyinizə görə ailəmiz adından Rəcəb müəllimə öz dərin minnətdarlığımızı bildiririk. Qoy Allah ona və sizə gələcək işlərinizdə yardımçı olsun.

Səmimi və bayram əhval-ruhiyyəli görüşün sonunda qonaqlar xatirə şəkli çəkdirmişlər.

**Nüşabə HÜSEYNOVA**

# Qurban bayramı günlərində qəbiristanlıqlarda təmizlik-abadlıq işləri aparılmış və səliqə-səhman yaradılmışdır

Bütün İslam dünyası, dünya Azərbaycanlıları və xalqımız həmişə öz milli-mənəvi dəyərlərinə və ənənələrinə sadiq olmuşdur. Ölkəmizdə bütün dini mərasimlər, o cümlədən Qurban bayramı hər il böyük təntənə ilə qeyd edilmişdir. Ölkəmizin hər yerində Allah adına qurbanlar kəsilmiş, xeyriyyəçilik işləri görülmüş, dövlətimizin tərəqqisi və əmin-amanlığı üçün dualar edilmişdir. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin, dünyasını dəyişmiş əzizlərimizin xatirəsi ehtiramla yad edilmişdir.

Bu məqsədlə rayonumuzda da bir sıra tədbirlər həyata keçirilmişdir. Müqəddəs Qurban bayramı günlərində rayon sakinləri qəbiristanlıqlarda olmuşlar. Onlar əzizlərinin və doğmalarının, şəhidlərin əziz xatirəsini yad etmişlər.



Ən təqdirəlayiq hal odur ki, rayon sakinləri dünyasını dəyişənlərin xatirələrini yad etməklə kifayətlənməmişlər. Bayram günlərində rayonumuzun bütün kəndlərindəki qəbiristanlıqların içərisində və ətrafında təmizlik işləri aparılmış, alaq otlarından təmizlənmiş və səliqə-sahman yaradılmışdır.


# Azərbaycan-Rusiya birgə müəssisəsi “AzRosPromİnvest” MMC-yə işçilər tələb olunur

Azərbaycan-Rusiya birgə müəssisəsi “AzRosPromİnvest” 2006-cı ildə təsis edilmişdir. Bu gün “AzRosPromİnvest” MMC Azərbaycanda yeganə müəssisədir ki, yüksək keyfiyyətli bentonit gili hasilatı və emalı ilə məşğuldur və onun əsasında müxtəlif məhsullar istehsal edir. Qabaqcıl elmi-texniki nailiyyətlərə və müasir istehsal potensialına əsaslanaraq, ”AzRosPromInvest” MMC MDB ölkələrinin bentonit bazarında aparıcı yer tutur və Avropa Birliyinə məhsulun ixracını həyata keçirir.

Aşağıda adları qeyd olunan ixtisaslar üzrə işçilər tələb olunur:

1. Hüquqşünas - əmək haqqı 1200 AZN
2. Satış üzrə baş menecer - əmək haqqı 1000 AZN
3. Əmək mühafizəsi və texniki təhlükəsizlik mühəndisi - əmək haqqı 500 AZN

**Tələb olunan şərtlər:**

- *Ali təhsil*
- *Rus dilini mükəmməl bilməli (ingilis dili arzu olunandır)*
- *Yaş 25-45 arası*
- *İş təcrübəsi həmin sahə üzrə ən azı 5 il*

**Tələb olunan sənədlər:**

- *Rus dilində CV*
- *Şəxsiyyəti təsdiq edən sənəd*
- *Diplom*

**Əlaqə telefonu: (050) 256 22 32**
**e-mail: guseynova@azrpi.com**
**“AzRosPromİnvest” MMC-nin saytı: www.azrpi.com**


**İTMİŞDİR**

**Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən Xəlilov Emil Sahib oğluna verilmiş 035605 seriyalı xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.**

**Musayev Allahverdi Əhməd oğlunun adına verilmiş məcburi köçkün vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**


**Baş redaktor: ELÇİN İSMAYIL**

TƏSİSÇİ: QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN: QAZAX ŞƏHƏRİ, H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor) 5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AİİB38060019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ:1200 SİFARİŞ: 2276

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir. Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib.
*Foto: Mehman Vələdov.*